

FEYRUZ BAĞIROV

YAMANLIĞA YAXŞILIQ

NAXÇIVAN — 2016

FEYRUZ BAĞIROV

YAMANLIĞA YAXŞILIQ



NAXÇIVAN — 2016

MÜNDƏRİCAT

Müəllifdən bir neçə söz 4

Uşaqlıqda görüb və eşitdiklərim 5

Komsomol işində 16

Cinayət və “cinayətkarlar” 18

Rüşvət çirkin işdir 22

Yamanlığa qarşı yaxşı olmaq 27

Halallıq böyük sərvətdir 30

Axirət fədaisi 32

İstifadə olunmuş mənbələr 43

Müəllifdən bir neçə söz

“Yamanlığa yaxşılıq” adlı kitabı yazmaqda məqsədim bu idi ki, insan bu dünyada kimliyindən asılı olmayaraq, Yaradanı tanısın. Çox da özündən çıxmasın və həyatda daima yaxşılıq üçün çalışsın. Axı qiyamət vaxtında bir halda ki, hər bir insandan dünyadakı yaxşı və pis əməlləri soruşulacaqdır. İstər böyük vəzifə sahibi olsun, istərsə də dindar Hacı olsun və ya adi fəhlə olsun, bütün bunlar boş şeylərdir, çünki insanın dünyadakı yalnız və yalnız əməlləri yaxşı olmalıdır.

Kitabı qələmə alarkən çox düşündüm və tarixi hadisələri gözümün önünə gətirdim. Oxucuda maraq yaratmaq üçün, Naxçıvan tarixindəki hadisələri və şəxs adlarını olduğu kimi yazmağı özümə borc bildim. Mənim də həyatımda buna oxşar hadisələr baş vermişdir. Özümü sanki həmin dövrlərdə və həmin hadisələrin içərisində olduğumu yada saldım. Çünki hər dövrün bir hökmü olduğu kimi, keçmiş Sovetlər dövrünün də qəribə hökmləri olmuşdur.

Kitabdakı adı çəkilən şəxsləri sanki mən yaxından tanıyırdım. Çünki Naxçıvan tarixinə nəzər saldıqda çox heyf ki, tarix kitablarında bəzi şəxslərin əməlləri gizlədilərək və hadisələri üstüörtülü yazmışlar. Müasir insanlar bilməlidir ki, ata-babalarımız, ana-nənələrimiz nə kimi çətinliklərlə üzləşmişlər. Hakim qüvvələr zalım və qəddarlıqla kimsəsiz insanları sanki bir qul və lazımsız əşya kimi istifadə etmiş və özlərinə haqq qazandırmışlar.

Naxçıvan şəhər yerinin bir neçə dəfə dəyişilməsi, əhalinin qəddarlıqla öldürülməsi, həqiqət olmuş və tarixi faktlar bunları sübuta çatdırmışdır. Naxçıvan şəhərinin sonuncu mərhələsində əhali haqsız zülmlərlə qarşılaşmışdır. Kitabda adı çəkilən Nehrəm kəndinin kəndxudası atamın atası ilə babası və Pasport masa şöbəsinin rəisi vəzifəsində işləyən isə mənim rəhmətlik atam olmuşdur.

Çox qəribədir ki, keçmiş hökumətin hakim şəxsləri, zaman dəyişsə belə yenə də kimlərinsə himayəsi ilə əvvəlki vəzifələrindədir. Bu tarixi hekayəti yazarkən bir neçə kitablardan da istifadə etmiş və onların adları axırda verilmişdir. Ümid edirəm ki, kitab Naxçıvan tarixi ilə maraqlanan oxucuların rəğbətini qazanacaqdır. İnşəAllah!

Bu kitaba oxucularda mənəvi zövq yaratmaq üçün 2009-cu ildə yazdığım “Axirət fədaisi” adlı kitabçamı da əlavə etmişəm.

Feyruz Abdulla oğlu Bağırov

Uşaqlıqda görüb və eşitdiklərim

> *"Yaxşılığa yamanlıq hər kişinin işidir,Yamanlığa yaxşılıq nər kişinin işidir."*
>
> (Ata sözü)

"... nəfs (insana) pis işlər görməyi əmr edər." (Yusif surəsi, 53).

Cümə günlərindən biri idi. Yaşlı və ahıl adamlar hər gün gəlib şəhərdəki "Böyük bağ" deyilən yaşıllıq sahəsində gəzişərək, ara-ara qoyulmuş uzun oturacaqlarda əyləşərək və bir-birləri ilə söhbətləşərdilər.

Mən də kənarda boş qalmış uzunsov oturacaqlardan birində əyləşib və vaxtın tez keçməsini gözləyirdim. Bu gün cümə günü olduğundan bütün dindarlar kimi, mən də adət üzrə yaxınlıqdakı məsciddə gedib namaz qılmalı idim.

Hər cümə günü məsciddə namaz ibadətindən sonra, Bakıdan poçt vasitəsi ilə Naxçıvana göndərilən "Haqqın nuru" adlı dini qəzetdən bir nömrə də mən alırdım. Qəzeti pulsuz olaraq din təbliğatçılarına və həvəskar ziyalılara verdiklərindən, mən də hər həftənin cümə günləri qəzet həvəskarı kimi səbirsizliklə gözləyirdim. El bu vaxt məscid yoldaşım və yaşca məndən böyük olan Məşədi Hüseyn, mənimlə salamlaşaraq və yanımda əyləşdi.

Hal-əhvaldan sonra, Məşədi Hüseyn mənə belə dedi: "Görürəm hələ namaza xeyli vaxt qalır, istəyirsən vaxtımız tez keçsin deyə, sənə bir keçmiş əhvalatlardan birini danışım." Mən saatıma baxaraq və onun bu sözlərinə etiraz etmədim.

Məşədi Hüseyn bir ah çəkərək və özünün keçmiş günlərini sanki bir daha yadına salmaq istədi. Mən ona toxtaxtlıq verərək "hərənin taleyi bir cür yazılıbdır" dedim. Məşədinin gözləri yaşardı və başın aşağı salaraq danışmağa başladı.

> *"İnsan (nə qədər varlı olsa da, təbiəti etibarilə) xəsisdir." (İsra surəsi, 100).*

Gənclik illərimi yetimçiliklə keçirmişəm. Hələ cavan yaşlarımdan ona-buna fəhləlik edərək bir tikə halal çörək üçün yaşamışam. Günlərin biri idi ki, məni şəhərdə yaşayan bir nəfər həyətində işləmək üçün çağırmışdır. Həmin adamın həyəti şəhərdəki "Dəmirçilər məhəlləsi"nə girəcək yolun kənarında idi. Məni çağıran adamın həyətindəki su nasosu xarab olduğundan, özümlə əvvəlcədən apardığım alətləri yerə tökərək və xarab olmuş su nasosunu düzəltməyə başladım.

Həyət sahibi olan bu kişi mənim yanıma çay içmək üçün tədarük gördü. Qəndin tapılmadığı bir vaxtda, ortalığa çayla bərabər şirniyyat da gətirib qoydu. Mən bir stəkan çay içdikdən sonra, işimin yarımçıq qalmış hissəsini də görüb qurtardım. Su nasosunu hara lazım idi qoyub işə saldım. Ev sahibi bundan xoşlanaraq və əllərimi yumasını bildirdi. Evdən əvvəlcədən hazırlanıb bişirilmiş yemək də ortalığa gətirib və gülümsəyərək- "şair demişdir ki":

> *"Yandırdığın oda qızın yuvandaİsinsin oduna, qonaq-qaranda.Süfrəndə çörəyin olsa yavandaQonaqla ürəkdən bölәsən gərək."*

Mənimlə bərabər çörək yeyən ev sahibi aram-aram sözə başlayaraq və özünün tale yollarından danışmağa başladı. "Usta, mənim başıma gələnlər bəlkə də heç kəsin başına gəlməmişdir.

Bil ki, ay usta mən bir vaxtlar adlı-sanlı ədliyyə işçisi kimi, şəhər Prokuroru idim. Məndən hamı qorxardı və kənar gəzərdilər. Qorxudan mənim sözümü danışan olmazdı. Bu həyət ki, var vaxtı ilə bəy həyəti olmuş və mən onu güllələdəndən sonra isə arvad-uşaqlarını da sürgün etdirmişəm.

Mənim adım uşaqlıqda yetim Qara olsa da, sonralar xalq arasında yoldaş Prokuror Qara Əhmədov çağırılardım. İndi isə qalmışam belə evləndiyim arvaddan uşaq olmadığından qalmışıq bu evdə tək-tənha.

Yaxşı ki, bir tikə çörək pulu dövlət tərəfindən təqaüd formasında hər ay poçtalyondan alaraq və arvadla bərabər günümüzü keçirirəm. Arvadımın qohumlarına bir vaxtlar havadarlıq etmədiyimə görə, indi onlar məni özlərinə düşmən bilirlər.

Uşaq olanda əvvəl anam və sonra isə atam çətinliklər üzündən dünyadan köçməli oldular. Məni qonşuluqdakı Hacı Nəcəfqulu Sultanovun həyətlərində nökər kimi qəbul edərək, gündəlik yavan çörək və süfrə qalıqları ilə yeyib orada yaşamalı oldum.

Hacının həyətlərini süpürər, toyuq-cücələrinə baxar və saxsı səhənglə gedib "Qızlar bulağı" dan içməli su gətirərdim. Bir sözlə mən bütün deyiləsi işləri həvəslə gördüyüm üçün, Hacının həmyaşıd uşaqları məndən xoşlanardılar. Axşamlar Hacının hər gün evinə gələn Məmmədtağı adlı iri gövdəli bir müəllim, uşaqlara oxuyub-yazmaq öyrədərdi. Şəhərdə "Rus-tatar məktəbi" olsa belə uşaqlar azyaşlı olduqlarından məktəbə getmirdilər. Hər gün gələn müəllimin məndən də xoşu gələrdi. Çünki gələndə uşaqlara şirniyyat verəndə, mənə də verərək və başıma sığal çəkərdi.

Uşaqlar Rus hərflərində oxuyub-yazmağı öyrənirdilər. Mən də onlarla bərabər həmin hərflərin yazılıb və oxunuşunu az-çox öyrənmişdim. Axırıncı dəfə müəllim gələndə səsi dəyişilmişdir və bərk öskürürdü. Mənim başımı sığallayıb dedi ki; "Yaxşı adam olmaq üçün Allahdan qorxmaq lazımdır.

Hər işdə səbirli olmaq və təmkinli olmaq gərəkdir. Pisliyə qarşı yaxşılıqla cavab verilməli və yıxılanı əl ataraq durğuzmaq gərəkdir. Elm dalınca hara olsa belə getmək və öyrənmək vacibdir. Dünyada dörd şeyin azı və çoxu bərabərdir; biri oddur ki, o bir qor olsa da onu söndürmək olar. İkincisi düşməndir ki, onu dost etmək lazımdır. Üçüncüsü borcdur ki, onu da vermək lazımdır. Dördüncüsü isə mərəzdir ki, zəif də olsa əlac etmək lazımdır."

Düzü mən ordubadlı "uçitelin" son dəfə dediklərini anlamadım və o birilərinə də heç həyatımda əməl etmədim. Ertəsi günü bizə dərs verən "uçitelin" Qarabağlar kəndində ölüm xəbəri bütün şəhərə yayıldı. Mən gizlicə gedərək və dəfndə uzaqdan durub tamaşa edirdim. Onun cənazəsini şəhər qəbiristanlığının aşağısında İmamzadə deyilən yerdə torpağa basdırdılar.

Naxçıvan şəhəri mənim dövrümdə eşitdiklərimə görə dördüncü dəfə idi ki, yerini dəyişmiş, əhali evlər tikib və burada məskunlaşmışlar. Əvvəlinci şəhər yeri Naxçıvan çayı ərazisinin sağ tərəfində geniş bir sahədə olmuşdur. Yadelli düşmənlər gəlib və həmin şəhər yerini dağıdaraq və əhalisini də tutub qul kimi aparmışlar.

Neçə yüz illər keçəndən sonra dağılmış şəhər yerinin yan tərəfində, indi ora xalq arasında "Qurdlar məhəlləsi" deyilir ki, kənardan gəlmə əhali tərəfindən orada şəhər salınmışdır. Çox çəkmir ki, həmin əraziyə də yadelli basqınçılar gəlib və şəhər yerini dağıtmış, kişiləri öldürərək qadınlarını isə qul qaravaş kimi aparmışlar.

Üçüncü şəhər yeri isə bir azca cənub tərəfdə bir tərəfi Naxçıvan çayı, diğər tərəfi isə uca təpəlik ərazi olmuşdur. Həmin təpəlik ərazidə möhürə palçıqla qalın divarı olan kiçik bir müdafiə qalası tikmişlər. "Narınqala" deyilən həmin qala yerində şəhərin varlı adamları ev tikdirmiş, kəhriz quyuları və yerin altı ilə Araz çayınadək çıxış yolu qazdırmışlar.

Dördüncü şəhər yeri də indiki "Dəmirçilər məhəlləsi", "Anbar məhəlləsi", "Pirqəmiş məhəlləsi", "Şahab məhəlləsi" və "Atabəylər məhəlləsi" olmuşdur. Tezliklə şəhər böyüyərək və qədimdən qalma "Cığatay məhəlləsi" ilə "Zaviyə məhəlləsi" də şəhərə birləşmişdir.

Maraqlıdır ki, qədim məhəllələrdən biri olan “Cığatay məhəlləsi” ndə yaşayan adamlar gözləri qıyıq olmuş və həmin məhəllə ərazisinə diğər adamların məskunlaşmasına yol verməmişlər. Bu məhəllədə böyük bir ağac- taxtadan düzəldilmiş yel dəyirmanı və iki mərtəbəli daşdan hörülmüş ev var idi ki, sahibi vaxtı ilə basqınçı monqol nəslindən idi.

Naxçıvan şəhəri əldən-ələ keçməklə əhalisi də ordan-burdan gəlmələr olmuşlar. Dindarlar söyləyərdilər ki, bu ərazidə ilk dəfə olaraq, Nuh Peyğəmbər, dünya tufanından sonra, düzəltdiyi taxta gəmisində öz ailə uşaqları və yerdəki canlı heyvanlarla bərabər, üzərək gəlib Ağrı dağında, (buna el arasında Ər-arvad dağı da deyərlər) dayanmışlar. Tezliklə sular çəkilmiş və Peyğəmbər arvadı Əmirə (Nama) və kiçik oğlu Yafəs ilə bərabər Araz çayı sahillərinədək gəlmişlər.

Nuh Peyğəmbərin nəsil şəcərəsi, Yəhudi nəslindən olmuş və su tufanına kimi Mesopatomiya ərazilərində yaşamışdır. Peyğəmbərin kiçik oğlundan olan insan nəsli ata-anasının qaldığı indiki Naxçıvan çayı yaxınlığındakı ərazilərdə yaşamışlar. Buna görə də həmin ərazidə ilk şəhər yeri Naxçıvan (Nuh yeri- deməkdir) olmuşdur.

Naxçıvan ərazilərində Nuh Peyğəmbərin adı ilə bağlı yer və kənd adları qalmaqdadır. Onlar Nəhəcir, Nuhdabanı, Nuhyurt, Nuhçuxuru, Nüsnüs və başqalarıdır. Deyilənlərə görə qədim dövrlərdə bu şəhər “Naxsuana” adlanmış və Nuhdan sonra inkişaf etmişdir. Yunanlar isə bura “Vospurkan”, yəni müqəddəs məkan demişlər.

Naxçıvan ərazilərində yaşayan xalq Azəri oğuz türkləri olmuşlar. Onlar oda, günəşə, ulduzlara və müxtəlif heyvan və quşlara sitayiş etmişlər. Atəşpərəstlərin inamı Zərdüşt Peyğəmbərin “Avesta” kitabı olmuşdur. Qədim dövrlərdə yaşamış Yunan sərkərdəsi İsgəndər Zülqərneyn İran ərazilərində olarkən həmin kitabı məhv edərək yandırmışdır.

Naxçıvan ərazilərinə monqol basqınçılarından əvvəl isə min dörd yüz ailədən ibarət Kanqlı tayfaları gəlib məskunlaşmışlar. Həmin tayfalar uzaq Sibir elindən Amur və Yenisey çayları mənbəyi ərazilərindən gəlmişlər. Türk xalqı kimi tarixə düşən bu xalqın nümayəndələri, Naxçıvan ərazilərinə gələrkən dörd təkərli öküz arabaları və özləri ilə bir çox mədəni bitki toxumlarını da gətirmişlər. Onlar ərazidəki Ərəb xilafətinin tərəfin saxlamaqla, müsəlman olmuşlar.

Kanqlı tayfaları bu ərazilərə gələrkən, sonradan tikilmiş “Ata-baba türbəsi” ətrafı ərazilərində ev tikərək məskunlaşmışlar. Həmin ərazilər indi şəhərin “Atabəylər məhəlləsi” adlanır. Ərazidə kəhriz quyuları qazılmış, torpaq əraziləri əkilərək və heyvandarlığı inkişaf etdirmişlər. Zamanın hökmü ilə tezliklə Kanqlı tayfa başçıları ərazilərdə hakim sinfi inkişaf etdirmək üçün, yerli əhalini ələ keçirirlər.

Bütün bu dediklərimi mən öz qulaqlarımla şəhərin dindar ziyalı adamlarının söhbətlərindən eşitmişəm. Dediklərim əgər yalan olarsa, babalı onların boynundadır. Ancaq mən özüm şahidi olmuşam ki, Naxçıvan ərazilərini çar Rusiyası ələ keçirəndən sonra, buradakı hakim Kanqlı türkləri, ruslara boyun əymiş və onların “çaldıqları oyunları oynamışlar.”

Eşitdiyimə görə, bir vaxtlar Rus çarı ermənipərəst Qriboyedov (göbələkyeyən) soy adlı adamını Naxçıvan xanının yanına göndərir. Onunla birlikdə tərcüməçi kimi Qubalı Abbasqulu ağa Bakıxanov da gəlir. Xana bildirirlər ki, İran ərazisində olan erməni əhalisi köçməlidir Naxçıvan elinə.

Xan əl-ayağa düşərək acizanə halda deyir: “Qurban olum Rus çarına da, bayrağındakı ikibaşlı qartala da. Görürsünüz biz də öz döyüş bayraqlarımızda ikibaşlı qartal rəmzini qəbul etmişik. Neynək Padşahın sözü bizim üçün qanundur. Deyir ki, ermənіləri Xanlıq ərazisində yerləşdirin, biz də onların bir hissəsini şəhərdə və qalanlarını isə kəndlərimizdə yerləşdirərik.” Şair demişkən;

> *“İstəsən hörmətin olsun cahandaHər sözün yerini bilәsən gərək,Bilməyən da çoxdur, çoxdur bilәndәMeydan verməyəsən bilәsən gərək.”*

Tezliklə İran ərazilərində Rus çarının hökmü ilə erməni ailələrini zorla gətirib və Naxçıvan, Zəngəzur, Qarabağ və İrəvan xanlığı ərazilərində yerləşdirildi. Qəribədir ki, Naxçıvanın hər bir kəndində erməni əhalisi yerləşsə də, təkcə Nehrəm kəndində onlara yer verilmədi.

Səbəbi də bu oldu ki, Nehrəm kattası Bağır bəy xalqın sözü ilə Xana yazılı surətdə bildirir ki, Nehrən kəndindəki “Qumqala ərazisi”ndə guya hansısa müsəlman şiyə imamlarından birinin (oğlunun) məzarı vardır. Nehrəm xalqı həmin məzarüstü “İmamzadə” deyilən yeri özləri üçün “müqəddəs” bilirlər. Buna görə də istəmirlər ki, kənd ərazisində xaçpərəst adamlar məskunlaşsın.

Naxçıvan xanı da bununla əlaqədar İrəvan quberniyasına öz məktubunda nehrəmlilərin xahişini bildirməklə, ermənilərin bu kənddə yerləşməsi məsələsi ləğv edilir. (bax; "Tiflis Arxivində tarixi sənədlər haqında." "Şərq qapısı" qəzeti, № 223, 2012). (Nehrəm kattası Bağır bəyin Naxçıvan xanına yazdığı ərizəsi əsasında İrəvan qubernatorunun qərar sənədlərinin əsli, Tiflisdəki Dövlət Arxiv İdarəsində saxlanılır-F.B.).

Eşitdiyimə görə həmin ermənilərin kökü Hindistandan gəlmələr olmuşdur. Oradan ermənilərlə bərabər qaraçı tayfaları da bütpərəst hindlilər tərəfindən qovularaq çıxarılmışlar. İstər erməni və istərsə də qaraçı tayfaları hər ikisi dinsiz bir xalq olmuşlar. Lakin erməni tayfası Ağrı dağı ətrafında xeyli müddət qaldıqdan sonra, ərazilər Yunan xaçpərəstləri tərəfindən tutulmuş və həmin əhalini də xaçpərəstliyə vadar etmişlər.

Erməni xaçpərəstləri indinin özündə də Rus xaçpərəstlərindən bəzi dini ehkam və əməllərə görə fərqlənirlər. Rusiya ərazilərində xüsusən Tambov quberniyasında Semyon Ukleinin başçılığı ilə "molokan" deyilən təriqət yaradılmışdır ki, dini ehkam və əməlləri Rus pravoslav kilsəsindən fərqlənirdi. Onlar, rus dilli olsalar da Məryəmi "müqəddəs" bilməyib və İsa Peyğəmbərin çarmıxda ölməsinə də inanmırlar.

Molokan rusları şərab içmək əməlini dinlərində günah əməllərdən biri kimi qəbul etmişlər. Onlar İsa Peyğəmbərin doğumu yəni mövludu günü bayram etməklə evlərində süd xörəklərindən istifadə edirlər.

Molokanlar hesab edirlər ki, dindarın məqsədi mənəvi dirçəlişdən ibarətdir. Onların bu əməllərinə görə müsəlman dininə yaxın olmaları, təhkimçiliyə qarşı və pravoslav kilsəsinə qarşı çıxmalarına görə Rus çarı tərəfindən ittiham olunmuşlar.

Süd içməklə molokanlar xaç çevirmə əməllərinə zidd olaraq və İsa Peyğəmbəri "Allahın oğlu" kimi qəbul etməmişlər. Hətta molokan din alimlərinin dediyinə görə Allahın müqəddəs kitabı olan "İncil" və "Tövrat" qanunlarında bilərəkdən dəyişikliklər edilmişdir. Molokanlar yalnız Davud Peyğəmbərin "Zəbur" səhifələri və sonuncu Peyğəmbər Məhəmmədə gəlmiş "Quran" kitabına boyun əyirlər.

Molokan dindarlarının dediklərinə görə Məhəmməd Peyğəmbərin vəfatından neçə il sonra bir neçə adamlar tərəfindən yazılaraq və kitab halına salınmış "Quran" sözlərində belə bir sıra səhvlər vardır. Çünki "Quran"dakı sözlər, (buna ayə deyirlər) əvvəlki söz axırda tamamlanmır. Molokanlar cismani əyləncədən uzaqlaşır, söyüş söymək, içki içmək və siqar çəkməkdən çəkinərlər.

Bütün bu və digər işlərə görə xüsusən Rus pravoslav kilsəsinin əleyhinə olduqlarına görə, Molokan icmaları Rus çarının hökmü ilə yaşadığı yerlərindən çıxarılaraq Qafqaza sürgün olunmuşlar. Molokanlar Zəngəzur bölgəsində bir müddət yaşadıqdan sonra, Naxçıvan şəhərinə axışıb gəlmiş və şəhərin bir hissəsi olan "Mömінə xatın" türbəsi yaxınlığında onlara yer verilərək məskunlaşmışlar.

Naxçıvan xanı şəhərdəki "Bazar çayı"nın sol tərəfində təbrizli xeyriyyəçilər tərəfindən tikilmiş "Cümə məscidi" ilə üz-üzə kilsə tikdirmişdir ki, molokanlar orada dini ibadətlərini yerinə yetirsinlər. Ermənilər Naxçıvan mahalına gələndən sonra demək olar ki, bütün kəndlərdə özləri üçün ibadətxanalar tikmişlər.

Naxçıvan şəhərində də günümüzədək qalan iki erməni kilsəsi olmuşdur. Onlardan biri "Zaviyə məscidi" ilə "Qadınlar klubu" nun arasında və ikincisi isə şəhərin kənarındakı "Qaraağac məhəlləsi" nin cənub qurtaracağında idi. Şəhərdəki hər üç kilsədə xüsusən xaçpərəstlərin dini bayram günləri və xüsusən də bazar günlərində izdihamlı olurdu.

Rus hakimiyyətində vətəndaşlıq sənədlərində familiya deyilən bir söz vardır ki, şəxsin adı və familiyası əsas sayılır. Buna görə də Kanqlı bəylərinin demək olar ki, hamısı, rusların tərəfini saxlamaqla, familiya deyilən Kanqlınsk əvəzinə (bu söz "boynuyoğun" kimi hallanırdı) Naxçıvanski soy adını götürmüşlər. Hakim bəylər tezliklə kiçik yaşlı oğlan uşaqlarını şəhərdə açılmış "Rus-tatar məktəbi"nə qoymuş və böyük oğlanları isə Rus çar hərbi hissələrində qulluq etməyə göndərilir.

Naxçıvan xan və bəy oğulları Rus çar ordusu sıralarında Osmanlı və Krım türklərinə qarşı və habelə qərbi Avropa dövlətləri ilə şərqdəki Yaponlara qarşı döyüşlərdə iştirak etmişlər. Həmin hərbiçilər Hüseyn xan Kalbalı xan oğlu, İsmayıl xan Ehsan xan oğlu, Kalbalı xan Ehsan xan oğlu və başqaları olmuşlar.

Yaxşı yadımdadır ki, 1918-ci ildə şəhərdəki sonradan "Araz Türk Cümhuriyyəti" adlanan iki mərtəbəli bina, Cəmşidin atası Cəfərqulu bəyin olmuşdur. Binanın həyətinin aşağısındakı tikililərdə isə varlı şəxslərin uşaqları üçün dörd illik "Rus-tatar məktəbi" yerləşirdi.

Naxçıvan şəhəri ilbəil böyüyərək gözəlləşirdi. Şəhər xeyriyyəçisi olmuş Kərbəlayı Musa adlı birisi öz vəsaiti ilə şəhərə kəhrizlər qazdıraraq və içməli su çəkdirmişdir. Rus çarının icazəsi ilə Britaniya Krallığı, Tiflisdən (Batumdan) Naxçıvana Trans-Avrasiya (London-Kəraçi-Bombey) poçt-teleqraf rabitə xətti çəkmiş. Poçt-teleqraf rabitə binası şəhərdəki "Təbriz meydanı" məhəlləsindəki "Bazar çayı"nın üstündə tikilmişdir.

Naxçıvan şəhərində teatr yaradılır ki, şəhər sakini xeyriyyəçi Hacı Nəcəf bəy Zeynalovun evində Axundovun "Molla İbrahim Xəlil kimyagər" adlı komediyasını həvəskar ziyalıların iştirakı ilə tamaşası göstərilmiş.

Naxçıvanda yaşadığım gənclik illərində bolşevik deyilən gizli "Hümmətçi" lər, kasıbların tərəfini saxlayan ziyalılar olmuş. Onlardan yaddaşımda qalanı, Camalbəyov, Yüzbaşov, Tağızadə, Bəktaşi və başqaları idi. Naxçıvan şəhərindəki "Qala məhəlləsi" də nəhəng kərpic zavodu tikilərək istifadəyə verilir. Şəhərdəki köhnə qəbiristanlıq yerində xeyriyyəçilərdən Şahbaz ağa, Kərbəlayı Musa və Miriş ağanın təşəbbüsü ilə "Padşahlıq bağı" salınır və "Bazar çayı"ndan da ora su arxı çəkilir.

Rus çarı Türk dövləti ilə müharibəyə başlayır. Sarıqamış döyüşlərində naxçıvanlı kəngərlilər də Çarın tərəfində türklərə qarşı çıxmağa məcbur olurlar. Həmin savaşlarda Türk hərbiçilərindən milliyətcə erməni olan general Andranik, Türk dövlətinin hərbi sirrini ruslara verməkdə ittiham olunaraq və qulağı kəsilməklə Türkiyə ərazisindən qovulur. Andranik İrəvana gələndə, oradakı ingilislərin himayəsi ilə türklərə qarşı "Daşnaksutyun" adlı siyasi partiya yaradır.

Eşitdiyimə görə 1917-ci ilin oktyabr ayında Rusiyada Leninin başçılığı ilə Çar hökuməti yıxılır və onun yerində fəhlə-kəndli bolşevik hökuməti elan edilir. Bütün bunları eşidən Naxçıvan bəyləri qorxuya düşürlər.

1918-ci ilin may ayında isə Tiflisdə Cənubi Qafqaz Seyminin son iclası keçirilərək və Məmmədəmin Rəsulzadənin başçılığı ilə "Azərbaycan Xalq Cümhuriyyəti" adlı yeni müstəqil bir dövlət hakimiyyəti elan olunur. Yeni qurulmuş dövlət başçıları Türk dövləti ilə "Sülh və dostluq" müqaviləsinə imza atırlar.

Gəncə şəhərində olan yeni dövlət hakimiyyətinə qarşı Bakıdakı erməni bolşeviki Stepan Şaumyanın başçılığı ilə komissarlar, mübarizəyə qalxırlar. Lakin çox çəkmir ki, ingilislərin Bakıya gəlməsi nəticəsində komissarlar tutularaq və gəmi ilə aparılıb Türkmənistan səhrasında güllələnirlər. Nədənsə tutulanlar arasındakı ermənilərdən Stepan Şaumyan, oğlu Suren Şaumyan və Anastas Mikoyan sağ qalırlar.

Naxçıvandakı başda xan olmaqla varlı və imkanlı adamlar bütün bu hadisələri eşidərək, qorxudan öz ailə-uşaqlarını Arazın o tayına, cənubi Azərbaycan ərazilərinə köçürürlər. Naxçıvanda "Araz Türk Cümhuriyyəti" deyilən bir qurum yaransa belə, Azərbaycanın yeni hökumət başçısı Məmmədəmin, Naxçıvana heç bir kömək göstərmir.

Bütün bunlardan istifadə edən xarici dövlətlərdən İngilis və Amerika nümayəndəlikləri öz kiçik silahlı dəstələri ilə Naxçıvan ərazilərinə sahib çıxmaq istəyirlər. Bu tərəfdən də Andranikə kürd qaçağı İsmayıl bəy Şimitko adlı birisi, öz dəstəsi ilə birlikdə, Qərbi Azərbaycan ərazilərinə silahlı hücuma keçirlər.

Quldurlar ərazilərdəki kəndlərə basqın edərkən Böyük Vedili Abbasqulu bəyin silahlı dəstəsindən qorxub və Araz çayından İran ərazilərinə tərəf keçirlər.

Erməni quldurları Cənubi Azərbaycan ərazilərindəki müsəlman əhalini öldürməklə gəlib Culfa körpüsündən Naxçıvana keçirlər. Ermənilərin Dro (Drostomanyan) adlı dəstə başçısı Ordubad tərəfə ayrılaraq və Andranikin başçılığı ilə diğər dəstə isə Naxçıvan şəhərinə tərəf üz tuturlar. Quldurlar Naxçıvan şəhərinin şimal tərəfindəki "Cənəmbər çeşməsi" yanında müvəqqəti düşərgə salmalı olur.

Üç gündən sonra erməni quldurları şəhərə basqın etmək istəsələr də, şəhərdəki Əlixan, Şahab və Qala məhəlləsindən olan könüllülər, qeyri-bərabər döyüşlərdə qalib gəlirlər. Erməni quldurları Naxçıvana köməyə gələn Kazım Qarabəkir Paşanın başçılığı ilə Türk qoşunlarının atdıqları top mərmisini görüncə, qayıdıb və Naxçıvan ərazilərindən qaçırlar. Türk qoşunları gətirdikləri hərbi sursatlarını naxçıvanlılara bağışlayaraq və onlar da "Mudros" müqaviləsinə görə Azərbaycan ərazilərindən çıxmalı olurlar.

1918-ci ilin qışında Məmmədəminin sədrliyi ilə Bakıda keçirilən Azərbaycan Parlamenti, yenə də Naxçıvandakı Araz Türk Cümhuriyyətinə biganə olmuşdur. On doqquzuncu ilin yanvar ayında isə İngilis-Amerika təcavüzkarları Doluxanovun başçılığı ilə erməni daşnakları Naxçıvanın Şərur qəzasına qəfildən hücum edərək və əhalini öldürmüşlər. Bunu eşidən naxçıvanlı mərd oğullar, kömək məqsədi ilə Şərur qəzasından ermənilər qovub çıxarırlar.

1919-cu ilin payızında Amerikalı hərbiçi Hasgelin kiçik silahlı dəstəsi Naxçıvana gəlir. Bundan sonra isə İngilis hərbiçiləri də kiçik silahlı dəstə ilə şəhərə, Trans-Avroasiya teleqraf xəttinə nəzarət bəhanəsəilə daxil olurlar. Amerikalılar şəhərdəki "Təbriz meydanı" məhəlləsində özləri üçün "Qubernator evi" tikdirərək və polkovnik Edmund Dell də qubernator qoyurlar.

1920-ci ilin 27 aprel tarixində Dərbənddən gələn 11-ci Rus zirehli hərbi qatarı Bakı vağzalına çatır. Bakı bolşevikləri Rus hərbiçilərini təntənəli şəkildə qarşılayaraq və AXC hökumətinin istefasına nail olmuşlar. Ertəsi günü aprelin 28-də zirehli qatarda gələn erməni bolşeviki Anastas Mikoyanın başçılığı ilə, Bakıda müstəqil fəhlə-kəndli hökuməti yaradılır. Nəriman Nərimanov isə Azərbaycan dövlətinin İnqilab Komitəsinin sədri olur.

1920-ci ilin yayında general Şelkovnikovun başçılığı ilə erməni daşnakları, İrəvan quberniyasında yaşayan 500 mindən çox müsəlman əhalini öldürməklə və Şərur qəzasına qovmuşlar. Qaçqınlar arasında Abbasqulu bəy Şadlinskinin də silahlı dəstəsi olmuşdur. Həmin dəstə Şahtaxtı körpüsündən Arazı keçib və Maku tərəfə getməli olur.

1920-ci ilin yay ayları idi şəhərə xəbər yayıldı ki, Bakıdan gələn qırmızı rusları Şahbuzda naxçıvanlı bolşeviklər gül-çiçəklə qarşılamışlar. Bu xəbər şəhərdəki kasıbların sevincinə səbəb olsa belə, varlı adamlara heç də xoş gəlmədi. Mənim o vaxt on yeddi yaşım olardı və yenə də həmin həyətdə nökərçiliklə məşğul idim...

Həmin ilin 28 iyul tarixində Bakıdan gələn on birinci Rus bolşevik ordusu əsgərləri Naxçıvana gəlirlər. Naxçıvanda "Hümmət" çi Sosial Demokratlardan Rüstəmov, Bəktaşi, Əsgərov və başqaları səmimi şəraitdə qarşılanırlar. Şəhərdəki "Qala məhəlləsi" meydanında keçirilən toplantıda, Naxçıvanda fəhlə-kəndli Xalq Hakimiyyəti elan olunur. Toplantıya Cəfərqulu xanı dəvət etsələr belə, faytonunda Şahtaxtı körpüsündən Arazı keçib və Maku tərəfə getmişdir...

Naxçıvanda Diyar İnqilab Komitəsinin qərarı ilə İrana getmiş Abbasqulu bəy Şadlinskini silahlı dəstəsi ilə təminatlı surətdə Naxçıvana dəvət edirlər. Culfa körpüsündən keçən silahlı dəstəyə "Qırmızı tabor" adı verilir. Erməni quldur dəstələri yenə də Zəngəzur əyalətində müsəlmanların qanını tökməkdə davam edirlər.

1920-ci ilin son aylarında erməni quldurları əsir alınır. Bundan sonra isə Türkiyə ilə Ermənistan arasında Aleksandropol (Gümrü) müqaviləsi imzalanır. Naxçıvan diyarının torpaq əraziləri, xüsusən Zəngəzur əyaləti Ermənistana verilir. Beləliklə Naxçıvan torpaq əraziləri bütöv Azərbaycan ərazisindən ayrı düşməli olur.

1921-ci ilin yazında Atatürk və Lenin tərəfindən təsdiq olunmuş "Moskva müqaviləsi" imzalanır. Beynəlxalq "Qars müqaviləsi"nə görə, Naxçıvan ərazilərinə qarşı təcavüz olarsa, o zaman Türk qoşunlarının hərbi köməyi olmalıdır. Həmin müqaviləni Türkiyə, Rusiya, Ermənistan, Gürcüstan və Azərbaycan nümayəndələri imzalamışlar.

Nəriman Nərimanovun da imzası olan Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin qərarı ilə, Naxçıvan vilayətindən bir çox kənd torpaq əraziləri Ermənistana verilmişdir. Həmin kəndlər; Axəc, Almalı, Aldərə, Lehvaz, Astasor, Nüvədi, Kilit, Qərçivan, Horadiz, Xaçik, Qurdqulağı, Sultanbəy və İtqıran olmuşdur.

1921-ci ilin may ayında Bakıda Azərbaycan İnqilab Komitəsi, Mərkəzi İcraiyyə Komitəsi ilə əvəz olaraq və birinci katib vəzifəsinə Sergey Kirov seçilir. Beləliklə də Bakı şəhəri rus dilli slavyanlarla çoxalaraq, "ruslaşır".

1921-24-cü illərdə Naxçıvan diyar İnqilab Komitəsinə Behbud ağa Şahtaxtinski sədrlik etmişdir. 1924-cü ilin 9 fevral tarixində Azərbaycan SSR-nin tərkibində Naxçıvan Muxtar Sovet Sosialist Respublikası yaradılaraq, Mirzalı bəy Bəktaşi də birinci katib təyin olunur."

Prokuror Qara bir az fikrə gedəndən sonra yenidən söhbətinə davam edir. Mən isə ürəyimdə istəyirdim ki, ev yiyəsi mənim üçün aid olmayan uzun-uzadı söhbətinə son qoysun. Mən bəhanə ilə ayaqyoluna getməyimi ona bildirdikdə, ev yiyəsi məni ayaqyolunu göstərərək və evə tərəf gedir. Ayaqyolundan qayıdıb əllərimi sabunlu su ilə yuduqda, gözüm süfrədəki kəsilib dilimlənmiş qarpıza sataşır.

Ev yiyəsi; "Hə qadası, ay usta hələ sənə deyiləsi ürək sözlərim vardır. Bu Qaradonlu qarpızıdır. Bədən üçün çox faydalıdır. Qarpızdan da ye gör necə də şirin və dadlıdır." Mən qarpızdan bir dilim götürüb dişimə çəkəndə, Prokuror gülümsəyərək söhbətə başladı.

"Fəhlə və kəndli hökumətinin ilk başçısı Lenin, Moskvada Qaplan adlı xain qadının qəsdi ilə tapança atəşindən ağır yaralanır. 1924-cü ilin yanvar ayında isə Leninin qaldığı Qorka qəsəbəsində, Stalinin hiyləsi ilə xidmətçi qadın tərəfindən zəhərlə öldürülür. Moskvada Sovet dövlət başçısı gürcü mənşəli keçmiş Bakı bolşeviki Stalin (Koba) olur.

Moskvada olduğu kimi, Bakıda və Naxçıvanda da, şübhəli dövlət məmurları tutularaq ittiham olunurlar. Tezliklə Azərbaycana dövlət başçısı yoldaş Mircəfər Bağırov gəlir. Naxçıvanda xüsusi komissiya tərəfindən cinayət- axtarış işlərinin iclası olur. Komissiyanın qərarına görə 50 nəfər bolşevik tutularaq ittiham olunurlar. Tutulanların əksəriyyəti keçmiş Naxçıvanın Kəngərli tayfalarından olmuş bəylər idi.

Komsomol işində

1924-cü ilin əvvəlindən Naxçıvan şəhərində keçmiş mülkədar Balabəy Əlibəyovun şəxsi mülkündə, Tarix-etnoqrafiya Muzeyi yaradılır. Uşaqlıq illərindən məni tanıyan Balabəy, rus dilində yazıb-oxumağıma görə Muzeydə nəzarətçi kimi işə götürürlər. Əvvəllər Balabəy Qarsdakı polis idarəsində işlədiyindən qayda- qanunları yaxşı bilirdi. O, həmçinin Urmiyə şəhərində də Naxçıvandakı Araz Türk Cümhuriyyətinin səlahiyyətli işçisi olmuşdur.

Bir ildən sonra nədənsə bolşevik yoldaş Balabəy Əlibəyov, Naxçıvan Daxili İşlər Komissarlığı tərəfindən həbs olunur. İşlədiyim muzeyə direktor ordubadlı bolşevik yoldaş Mirbağırı qoymaqla, adı isə dəyişilərək Tarix-Ölkəşünaslıq Muzeyi olur. Azərbaycanda yazı əlifbası dəyişilərək, fars-ərəb mənşəli yazı hərfləri, latın əlifbası ilə əvəz olunur.

Naxçıvan Firqə Komitəsinin birinci katibi yoldaş Bahadır Vəlibəyov, muzeydə mənimlə tanışlıqdan sonra, Naxçıvan İlk Komsomol Təşkilatına sədr vəzifəsinə keçirir. Mənim işimi dəyişirlər şəhərdəki "Zaviyə məscidi" binasına. Həmin binada bir neçə ictimai təşkilatlar fəaliyyət göstərmişdir. Habelə orada Ernest Telman adına Pioner Klubu da yaradılır.

1930-cu ildə Muxtar respublikada ümumi Təsərrüfat Artelləri yaradılaraq və keçmiş mülkədar torpaq ərazilərində kollektiv təsərrüfat (kolxoz) deyilən ümumkəndli təsərrüfatları olur. Naxçıvanda sovet hakimiyyətinə qarşı duranlara havadarlıq edənlər ortaya çıxır. Onlar, Kərbəlayı Süleyman, Kərbəlayı İsmayıl, Cəfərqulu xanın adamlarından Keçili kəndindən Əbdül Məhərrəm oğlu (Quşdan) və Məşədi İsmayıl, ərəfsəli Səlim, milaxlı Kərbəlayı Yəhya və başqaları idi. Tezliklə onların hamısı tutularaq və öldürülürlər.

Hökumət əleyhinə çıxmış qaçaq və qolçomaqlarla mübarizədə həlak olan milis işçilərinin cənazələri gətirilərək "Təbriz meydanı" məhəlləsində Daxili İşlər Komissarlığı binasının qarşısındakı "toplantı"dan sonra, şəhərdəki "Padşahlıq bağı" da dəfn edilirlər.

Naxçıvan şəhərindəki Klara Setkin adına "Qadınlar klubu"nda tez-tez maraqlı toplantı və rəsm sərgisi keçirilərdi. Klubda savadsızlığa qarşı mübarizə məqsədilə qadınlara yazıb-oxuma öyrədilirdi.

Bir gün klubda komsomol fəallarının iclasını keçirmək məqsədilə Muxtar Respublika Komsomol fəallarına yerlərdə "marksizm-leninizm dərnəkləri" nin keçirilməsi barədə müzakirəyə toplanmışdıq.

Həmin illərdə Azərbaycan hökumətinin başçısı yoldaş Mircəfər Bağırov tez-tez rayon mərkəzlərinə gedər və oradakı işlərlə əyani surətdə tanış olardı. Ölkə başçısı bir neçə dəfə Naxçıvanda da olsa belə mən onu sifətdən tanımırdım.

O, Naxçıvandakı kolxoz tarlalarında pambıq və taxıl əkinləri ilə yaxından tanış olar, sahədə işləyən kolxozçularla söhbət edərdi. Lazım gəldikdə ehtiyaclı olanlara hökumət yardımı edər və narazılıqları aradan qaldırardı. Naxçıvandakı Duz dağ mağarasında olan yoldaş Bağırov, oradakı fəhlələrin ağır işlərini gördükdən sonra, onlara şəkər-şirniyyat və ərzaq payları göndərmişdir.

Mən klubda iclas apararkən üç nəfər kişinin qapıdan içəri girməsini gördüm. Onlardan biri nisbətən alçaqboy əynində nimdaş plaş, gözündə eynək və başında isə adi kepka papağı var idi. İclasda danışanın sözünü yarımçıq kəsərək və gələnlərə ciddi şəkildə dedim: “Yoldaşlar görürsünüz ki, burada iclas vardır. Xahiş edirəm ki, bayıra çıxasınız və əgər vacib işiniz olarsa, iclasdan sonra gəlin yanıma.”

Gözündə eynək olan yanındakı yoldaşlarına baxıb və gülümsəyərək hər üçü klubdan bayıra çıxdılar. İclas qurtardıqdan sonra məni qapıda iki nəfər milis işçisinin gözlədiyini gördüm. Elə bu vaxt bilmədim ki, nə edim. Milis işçiləri ilə salamlaşdıqdan sonra mənim Muxtar Respublika Xalq Daxili İşlər Komissarlığına getməyimi bildirdilər. Komissar Həmid Yaqubov qonaqları ötürmək üçün hara isə getdiyindən orada xeyli vaxt oturub gözləməli oldum.

Nəhayət ki, axşam üstü komissar gələrək və mənimlə gülər üzlə görüşüb yerində əyləşdi. Yoldaş Yaqubov mənə baxaraq və qeyzlə dedi: “Yoldaş Komsomol sən deyəsən heç kəsi saymırsan. O yekəlikdə yoldaş Bağırov Bakıdan Naxçıvana gəlmiş və sənin iclasında iştirak etmək istəmiş, sən isə onu adi adam kimi içəriyə buraxmamışsan.” Mən bu sözlərdən az qaldı ki, özümü batıram və qorxudan başım gicəldi. Bilmədim ki, nə edəm və özümü yığışdıraraq üzür istədim.

Yoldaş Yaqubov gülümsəyərək və əlavə edib dedi: “Yoldaş Bağırovun səndən xoşu gəldiyindən mənə tapşırdı ki, səni özümə burada müavin işinə götürəm. Bunun üçün Komsomol işindən çıxma ərizəsi yaz və günü sabahdan isə gəl bura. Səni bir aylığa Bakı şəhərinə təkmilləşmə kursuna göndərəcəyəm...

Cinayət və “cinayətkarlar”

Hə qardaşım Hüseyn usta, mən Bakıda xüsusi kurs keçdikdən sonra qayıdıb və Naxçıvan MSSR XDİK-da xüsusi şöbənin rəisi vəzifəsində işləməli oldum. Təzə iş yerim Telman klubunun qarşısındakı bir vaxtlar İngilislərin tikdirdiyi zirzəmisi olan iki mərtəbəli yaraşıqlı bina idi. Mənim əsas işim hökumətə qarşı çıxan və bəzi dövlət əleyhinə danışıq aparanlarla mübarizə idi. İş yerimin yanındakı otaqda Pasport masa deyilən iş otağı var idi ki, oranın da rəisi yoldaş Abdulla Bağırov idi.

Keçmiş günlərdən biri idi hələ də yoldaş Abdullanın sözünə baxmadığıma təəssüflənirəm. Axı vəzifədə mən ondan üstün idim. Bir gün Nehrəm kəndindən bir gizli məktub aldım ki, kənd sakini dülgər Abbasqulu adlı bir şəxs, yoldaş Stalini təhqirli sözlərlə söymüşdür. Dərhal iki nəfər milis göndərdim Nehrəm kəndinə və “cinayətkar” Abbasqulunu tutub bura gətirməyə. Tezliklə həmin şəxsi əlləri bağlı halda mənim otağıma gətirdilər.

Mən bir nəfər də yanıma çağırıb və deyilənləri sənədləşdirmək üçün Protokol yazmasını bildirdim. Öyrəndim ki, bu şəxsin heç bir günahı olmasa belə, xain və əbləh Abasət adlı qonşusu onu tutdurmaq istəmişdir. Nə var nə yox ki, bu halal zəhmətlə dülgərlik edərək çörək pulu qazanır, qonşusu isə əlindən heç nə gəlmədiyindən bənna yanında fəhləlik edir.

Mən sorğu apararkən təsadüfən qapını döyüb içəri girən yoldaş Abdulla oldu. O, tutulmuş məhkuma baxaraq və gülümsəyə-gülümsəyə ona dedi: “Dülgər qardaş, kefin necədir? Olmaya sənin də buralara işin düşübdür. Axı sən halal bir ustasan. Yəqin ki, nə isə burada səflik olmuşdur.” Sonra o, mənə tərəf dönərək və məhkumun bir neçə dəqiqəliyə bayıra çıxmasını bildirdi.

Məhkum milis işçisi ilə otaqdan çıxdıqdan sonra, yoldaş Abdulla Bağırov mənə bildirdi k, onu buraxam və əvəzində Təzəkənddən olan erməni Ermənitiсarət bazası Naxçıvan şöbəsinin hesabdarı Sumbatın atası İsa Baxşıyevi siyahıya salam. Çünki, İsa Vazgen oğlu hökuməti istəməyənlərdəndir. Ona Pasport verəndə, mənə kinayə ilə demişdi ki; “Vaxt gələr oğullarımız “Böyük Ermənistan” yaradar və onda bilərik Türklər kimdir.”

Mən isə gülərək və iş yoldaşıma belə dedim: “Deyəsən sənin də atan-baban Nehrəmli olub?” O isə belə dedi: “Bəli mənim babam Hacı Bağır və sonra isə atam Hacı Məhəmməd Kəngərli uzun illər Nehrəm kəndinin kattası olmuş və namus-qeyrətlə xalqa rəhbərlik etmişlər.” Mən ona qeyzlə dedim: “Yaxşı belədirsə bəs sənin familiyan nə üçün Kəngərli yox, Bağırovdur ?”

O isə köhnə dost kimi əlini çiynimə qoyaraq və gülə-gülə əlavə etdi; “Çünki, sənin kimi dostlar, bir gün gələr və məni də bu familiya üstündə müttəhimlər kürsüsündə “cinayətkar” kimi əyləşdirərdi. Buna görə də atam bütün varını Sovet hökumətinə verdiyinə görə bizlərə dəyib toxunmadılar.”

İş yoldaşım gülümsəyərək əlavə edib və iki misra hansısa şairin şerini avazla zümzümə etdi;

> *“Ot bitər kök üstə, deyib atalar,Əslini danandan hörmət gözləmə.Üzdə gülüb dalda quyu qazandanYaxşılıq gözləmə, ülfət gözləmə...”*

Düzü mən başımı aşağı salıb bir az fikirləşdikdən sonra iş yoldaşıma belə dedim: “Yoldaş Bağırov, gərək məni bağışlayasan, sənlə dost olsam da, vəzifəmə görə Abbasqulunu “cinayətkar” kimi tutdurub və Sibirə sürgün edəcəyəm. Qoy bunu eşidənlər qulaqlarında sırğa kimi assınlar. Di sağ ol və əgər mənimlə başqa işin yoxdursa, icazə ver müttəhimi sorğu-suala çəkim.”

Mənim çıxardığım qərara görə müttəhimi Sibirə sürgün etdirdim. Lakin o hadisənin əzabını və iş yoldaşımın sözünə baxmamağımı hələdə unutmamışam. Mənim pis cəhətlərimdən bir də səbirsiz olmağımdan irəli gəlmişdir. Allah bağışlayar yəqin ki, əgər bir vaxtlar nahaqdan tutub Sibirə göndərdiyim adam indi qarşıma çıxarsa, inan ki, onun ayaqlarına düşüb və səhvimi bağışlamağımı istərəm. Şair demişkən;

> *“Bu dünya nə sənə, nə mənə qalmaz.İmkanlı, kasıbdan intiqam almaz.Bu dünya kiminə oyun, əyləncəKimininsə həyatı əzab, işgəncə.”*

Hə mənim Hüseyn usta qardaşım, bil ki, 1937-ci ildə nahaqdan Azərbaycan oğulları “cinayətkar” kimi tutularaq və Respublika Daxili İşlər Komissarlığının Təhlükəsizlik Şöbəsi tərəfindən güllələnmişlər. Onlar, Qambay Vəzirov, Cəmşid Naxçıvanski, Heydər Novruzov, Qurban Həsənov, Heydər Vəzirov, Qafar Babayev, Abbasqulu Əliyarov, Həsən Səfərov və başqaları olmuşdur. Hələ çoxunun adları yadımdan çıxmışdır.

Səbəbi də bu olmuşdur ki, Naxçıvan Xalq Daxili İşlər Komissarlığında işləyənlərin əksəriyyəti başqa millətdən olanlar idi. O vaxtlar yaxşı ki, mən Bakıdakı kursdan qayıdandan sonra, Muxtar Respublikanın Baş Prokuroru vəzifəsində işləyirdim. Naxçıvan XDİK-da əsas vəzifələrdə işləyənlər, Qranskiy, Vakulçik, Zakiyan, Meleseyev, Perel, Baziyan, Geverkov, Danielyan və başqaları idi.”

Keçmiş Prokuror bir qədər fikrə gedərək nəyi isə xatırlayaraq və mənə belə dedi: “1937-ci ildə cavanlıq edərək və dövlətə xeyli miqdarda vəsait versəm də heç vaxt yadımdan çıxmayan bir səhv iş tutmuşam. Həmin səhv işimi heç vaxt özümə bağışlaya bilmirəm. Bu dediklərimi söz ver ki, heç kimə və heç yerdə danışmayacaqsan. Çünki, məni tanımayanların nifrətini qazanaram.

Həmin ildə Azərbaycanın hər yerində keçmiş varlı adamların evləri müsadirə olunaraq və özlərini də xain adlandırıb ya uzaq Sibirə göndərilər və yaxud da yerindəcə güllələnirdi. Bir gün mənə xəbər gəldi ki, şəhərin Oktyabr küçəsində yaşayan keçmiş Kəngərli nəslindən olan İsmayıl adlı bir nəfər hazırlaşır ki, gecə ilə Arazdan keçib və İrana qaçsın.

Həmin illərdə varlı adamlar İrana keçəndə evindəki qiymətli əşya və qızıl-gümüş pullarını heyvan dərisinə bükərək tanıdığı seyid qəbirlərində qazıb basdırardılar. Mənə gələn məlumat əsasında dərhal iki milis nəfəri ilə silahlanıb və axşam üstü şəhər sakini İsmayıl Kəngərlinin evinə tərəf yollandıq.

Həyətdə bağlanmış it bizi görcək hürməyə başladı. Cibimdə bir tikə ağ çörək olduğundan çörəyi itə tərəf atdım. İt çörəyi yeyə-yeyə səsini kəsdi. Pəncərədən evin içərisinə baxanda evin yiyəsi (onun adını çəkmək istəmirəm) arvadı və oğlan uşağı ilə kiçik sandığa qızıl-gümüşdən olan mətbəx əşyaları ilə kiçik torbalarda nə isə qoyurdu.

Silahlarımızı çəkib və qapıdan xəbərsiz vəziyyətdə evə daxil olduq. Evdəkilər bizi görcək qorxdular. Milis nəfərlərinə göz eləməklə dərhal ev sahibi İsmayıl kişisini tutub və əllərini dalda iplə bağladılar. Mən hiddətlə ona dedim: “Dövlətə qarşı gizli işlə məşğul olduğunuz üçün “cinayətkar” kimi, Xalq Komissarlığı tərəfindən həbs olunursunuz.”

Ev yiyəsi bir söz deməsə də arvadı hönkürərək ağlamağa başladı. Mən bir əlimi sandıqçanın qapağına qoyanda, oğlan uşağı atılaraq və mənə hirslə; “Atamın sandığına dəymə” dedi. Sağ əlimdə silah olduğundan sol əlimlə oğlan uşağının üzünə möhkəm sillə vurdum. Uşaq ağlayaraq və anasının qucağına tərəf yıxıldı.

Biz dərhal sandıqla tutulmuş əlibağlı ev yiyəsini də götürüb və Xalq Daxili İşlər Komissarlığına gəldik. Milis nəfərləri tutulmuş məhkumu Komissarlığın zirzəmisinə salıb və sandıqçanı da otağıma gətirdilər. Qapını bağlayıb və əhvalatı Komissarlığın rəisinə məlumat verdim. Tezliklə rəis gəldi otağa və onun yanında sandıqçanın qapağını açdım.

Sandıqçadan xeyli miqdarda qızıl və gümüşdən hazırlanmış mətbəx avadanlığı ilə kiçik torbalarda isə Rus çarından qalma qızıl, gümüş və misdən olan qəpik pullar çıxdı. Rəis bunları gördükdə gülümsəyərək mənə "əhsən" dedi və bu barədə İstintaq Protokolu tərtib etməyimi bildirdi. Sandıqçanı içərisindəki şeylərlə bərabər milis nəfərləri rəisin otağına apardılar.

Ertəsi günü tutulmuş məhkum haqqında sorğu-sualsız İstintaq Protokolu yazaraq və zirzəmidə "xalq düşməni" kimi güllələnməsinə əmr verdim. Protokola əsasən, "cinayətkarın" evi dövlət tərəfindən müsadirə olaraq və evsiz qaçqınların yaşayışı üçün təminat verildi. "Xalq düşməni"nin ailə üzvlərini isə Azərbaycandan çıxarmaqla Qazaxıstan çöllərinə sürgün etdik.

Bir həftədən sonra "cinayətkarlara" qarşı "yaxşı işləməyimə görə" Bakıdan teleqramla təşəkkür alaraq və ixtisas artırma kursuna dəvət olundum. Bakıda dəmir yolu vağzalında qatardan enəndən sonra, təsadüfən keçmiş iş yoldaşım Pasport masa Şöbəsinin keçmiş rəisi yoldaş Abdulla Bağırov ilə rastlaşdım. Onunla görüşüb-öpüşdükdən sonra məni yaxınlıqdakı çayxanaya apardı.

Biz orada çay içə-içə söhbətləşirdik. Köhnə dostum bildirdi ki, Naxçıvanda işdən çıxandan sonra gəlib Bakıda Sənaye Məktəbində tələbə olmuşdur. Ona bildirdim ki, Ali təhsilim olmadığına görə məni də göndəriblər Prokurorluq kursunda oxumağa. Köhnə dostum bu münasibətlə məni təbrik edəndən sonra dediyi sözü hələ də yadımdadır; "Həyatında nə vəzifədə olursan ol, hər işdə Allahdan qorx!"

Rüşvət çirkin işdir

Azərbaycan MİK-nin sədri yoldaş Mirbəşir Qasımovun təklifi ilə məni Bakı şəhərində Prokurorluq kursuna göndərdilər. Mən üç ay müddətində Xüsusi təyinatla getdiyimə görə Kirov adına İnstitutun Hüquq fəlsəfəsi şöbəsində xüsusi hazırlıq kursunda tələbə oldum. Mənimlə orada daha doqquz nəfər də var idi. Dərs məşğələlərinin çoxu rusca keçirilirdi. Kursu bitirdikdən sonra imtahan verib və Ali hüquq təhsilli diplom aldıq.

Məni Azərbaycan MİK-nə yenicə sədr seçilmiş yoldaş Mirteymur Yaqubov, səmimi qəbul edərək Ali təhsil aldığıma görə təbrik edib və Naxçıvan MSSR-nin Baş Prokuroru vəzifəsinə təyin etdi. 1938-ci ildən mən Naxçıvan MSSR Baş Prokuroru vəzifəsində təzə işimə başladım. İş yerim Naxçıvandakı, əvvəllər Cəmşid Naxçıvanskinin ata evinin bir tərəfində idi. Həmin binanın qalan hissəsi isə Muxtar Respublika Xalq Səhiyyə Komissarı yoldaş Həmid Əsədovun idarəçiliyinə verilmişdir.

Həmin ildən Azərbaycan XKS-i Nazirlər Şurasının adı dəyişilərək Nazirlər Soveti ilə və Azərbaycan MİK-si isə Ali Sovet adı ilə əvəz olundu. Bundan sonra (1940-cı ilin yanvarından- F.B.) Azərbaycan Xalq Maarif Komissarlığının dekreti ilə Azərbaycandakı mövcud Latın qrafikalı əlifba, Rus (Kiril) əlifbası ilə əvəz olunur. Naxçıvan şəhərində iki illik Dövlət Müəllimlər İnstitutu yaradılır. İctimai əsaslarla şəhərdəki Muzeyin işçisi Bahar Kəngərli Qadınlar klubundakı savad kursuna rəhbər seçilir.

1941-ci ilin 22 iyun ayında Hitlerçi Almaniya, Sovet ittifaqı ilə bağladığı Sülh Müqaviləsini pozaraq və SSRİ ərazilərinə silahlı hücuma keçir. Moskvada yoldaş Stalin tərəfindən Dövlət Müdafiə Komitəsi yaradılır. Naxçıvan XDİK nəzdində fəaliyyət göstərən Təhlükəsizlik Şöbəsi, müstəqil olaraq Naxçıvan MSSR Xalq Dövlət Təhlükəsizliyi Komissarlığı olur.

1941-ci ilin avqust ayında Bakıda azərbaycanlı könüllülərindən ibarət 402-ci milli diviziya yaradılır və yoldaş Mircəfər Bağırov mütəmadi olaraq gedib döyüş bölgələrindəki əsgərlərlə görüşür. Bakıda olduğu kimi Naxçıvanda da Dövlət Müdafiə Fondu yaradılır. Naxçıvan əhalisi gündüzlər işləyib gecələr isə ev pəncərələrinə qara pərdə asaraq və "Rekord" radio ucadanışanlarla moskvalı diktor Viktor Levitanın xəbərlərinə qulaq asırdılar.

Allaha şükür ki, İkinci Dünya müharibəsi Sovet İttifaqının qələbəsi ilə 9 may 1945-ci il tarixdə başa çatdı. 1941-45-ci illərdə Naxçıvanlı döyüşçülərdən üç nəfəri Sovet İttifaqı Qəhrəmanı fəxri adını almışdır. Onlar Qəzənfər Əkbərov, Nəcəfqulu Rəfiyev və Abbas Quliyev yoldaşlar idi. Döyüşçülərdən Akim Abbasov, Mehdi Mahmudov, Rəhim Rəhimov, Bağır Bağırov və Məmməd Əliyev "Şöhrət" fəxri ordeni ilə mükafatlanmışlar.

1941-46-cı illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi yoldaş Hüseyn Nəcəfov idi.

1946-49-cu illərdə Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin birinci katibi yoldaş Yusif Yusifov idi.

1947-ci ilin 10 mart və 1948-ci ilin 23 dekabr tarixlərində (A.Mikoyanın təklifi ilə) SSRİ Nazirlər Sovetinin qərarı ilə Ermənistan ərazilərindən Azəri türklərini yurd yerlərindən çıxarırlar. Həmin ərəfədə Naxçıvan ərazilərinə 10 mindən artıq "İrəvanlı" ailələr köçürülmüşdür.

1949-cu ilin 28 may tarixində Naxçıvan şəhərindəki Lenin meydanında Muxtar Respublikanın 25-ci ildönümü münasibətilə təntənəli tədbirlər keçirildi. Tədbirdə yeni seçilmiş Naxçıvan Vilayət (bolşeviklər) Komitəsinin katibi yoldaş Paşa Əliyev də iştirak etmişdir.

1952-ci ilin sentyabr ayından (Sov İKP MK-nın 19-cu Qurultayından sonra) ÜİK (b) Partiyası sözü Sov.İKP adı ilə və Azərbaycanda isə Azərbaycan KP adı ilə əvəz olunur. Bir ildən sonra isə yoldaş Stalin vəfat edərək və onun yerinə yoldaş Malenkov keçir.

Həmin illərdə Azərbaycan KP MK-nin birinci katibi yoldaş Mirteymur Yaqubov idi. 1954-cü ildən isə həmin vəzifəyə yoldaş İmran Mustafayev gəlir.

1955-ci ildən Sov. İKP MK-nə Baş katib yoldaş Nikita Xruşşov və Nazirlər Sovetinin sədr vəzifəsinə isə yoldaş Nikolay Bulqanin seçilirlər. Yoldaş Xruşşov yüksək vəzifəyə keçəndən sonra Moskvadakı bir sıra yüksək vəzifəli şəxsləri işindən çıxardaraq və guya onlar "xarici kəşfiyyatla əlaqəli olduğundan" güllələnirlər. Həmin siyahıda yoldaş Mircəfər Bağırovun da adı olduğundan o da "xalq düşməni" kimi güllələnir.

Bakıda da Azərbaycan Təhlükəsizlik Komitəsinin sədri yoldaş Vladimir Bauçerov tərəfindən bir çox vəzifəli adamlara istintaq işi açılır. 1956-cı ilin mart ayında Moskvada Sov İKP-ın 20-ci Qurultayında Stalinin şəxsiyyətinə pərəstiş siyasəti pislənərək və Kommunist Partiyasındakı "bolşevik" sözü ləğv edilir. 1958-ci ildə isə yoldaş Xruşşov, qərar çıxarır ki, Stalin dövründə tutulan və sürgün olmuş məhkumlar azad olunsunlar.

1959-cu ildə xalq təsərrüfatının bütün sahələrində "kommunizmə çatmaq" siyasəti ilə ciddi islahatlar aparılır. Məktəblərdə icbari təhsil səkkizillik və onbirillik proqramına keçməklə və şagirdlərin xüsusi geyim forması ləğv edilir. Həmin ildə Naxçıvan şəhərində yoldaş Nemət Kərimovun başçılığı ilə Tikiş Fabriki işə düşür. İş yerimin yanında isə Naxçıvan Səhiyyə Nazirliyi tabeliyində Səhiyyə Maarifi Evi yaradılır.

Həmin ildə Azərbaycan KP MK-nin birinci katibi vəzifəsinə yoldaş Vəli Axundovu seçirlər. Moskva və Bakıda olduğu kimi Naxçıvanda da Xalq Nəzarəti Komitəsi deyilən inzibati qurum yaradılır və yoldaş Qadir Həsənəliyev sədr seçilir. Naxçıvanda 1953-cü ildən "Avtomotoklub" kimi fəaliyyət göstərən tədris müəssisəsi yoldaş Qadir Vəzirovun direktorluğu il Avtomoto Məktəbinə çevrilir.

1960-cı ildən yoldaş Xruşşov tərəfindən Stalin dövründən qalma Sovet Banklarında pul və əmanətlər dəyişdirilir. Belə ki, o dövrdəki on manat kağız pul, bir manata endirilir. Qəpik pullardan on qəpik, bir qəpiklə əvəz olunur.

Dövlət başçısının əmri ilə müttəfiq respublikalarda kənd təsərrüfatının heyvandarlıq sahəsində donuzçuluq və taxılçılıq sahəsində isə qarğıdalı əkininə üstünlük verilir. Həmin ildən SSRİ Kənd Təsərrüfatı Nazirliyinin orqanı olan aylıq rusca "Qarğıdalı" adlı jurnal da nəşr olunur.

Mənim də həyatımda başıma min bir dərd salan şəhərdəki avtobus sürücüsünün uğursuzluğu olmuşdur. Hə dostum Hüseyn usta, səni çox yorduğum üçün məni bağışla. Ancaq ürəyimdə bir dərdim var ki, indiyədək heç kəsə deməmişəm. Səndə bu söhbəti qəbir evin gedənədək heç kəsə danışma. Onsuz da mən vəzifə düşkünü kimi haqsızlıq etmiş və indi də tövbə etməklə bu dərdi çəkə bilmirəm. Allah günahları bağışlayandır."

"Diqqət ilə qulaq as və gör mən necə də günah sahibi olmuşam. Günlərin bir günü şəhərdəki dəmir yolu vağzalı ilə "DOSA" deyilən Zabitlər evi arasında marşrut avtobusları işləyərdi. Bir gün sürücülərdən biri yolda adam vurub öldürür. O zaman şəhərin yalnız avto dönək yollarında Dövlət Avtomobil Müfəttişliyinin milis işçiləri, ağzında fit verən püskürək əlində isə üstü dama-damalı kiçik yol göstərən çubuq olardı.

Daxili İşlər Nazirliyindən işlədiyim Prokurorluğa Telman adında avtobus sürücüsünün məsuliyyətsizliyi üzündən adam öldürmə haqqında cinayət aktı ilə Protokol sənədləri daxil oldu. Mən sənədlərlə tanış olduqdan sonra, telefonla Daxili İşlər Nazirliyinə bildirdim ki, tutulmuş sürücünü Prokurorluğa gətirsinlər. Yarım saatdan sonra iki milis nəfəri ilə tutulmuş cinayətkar sürücü otağıma gətirildi.

Otağımda cinayətkar sürücü ilə təkbətək qalaraq və onu başdan ayağa süzdükdən sonra belə dedim; "Sənin işin şuluqdur, adam öldürmüşsən, cinayətkar kimi altı il həbs cəzası gözlənilir. De görüm fikrin nədir." Sürücü sanki qorxurmuş kimi, əvvəlcə qapıya baxıb və yavaş səsi ilə mənə dedi: "Xahiş edirəm ki, məni bu düşdüyüm bəladan qurtarasan. Evdə külfətimi dolandıran təkcə mənəm. Mən tutulub həbs olunsam onlar acından öləcəklər."

Bir anlığa lənətə gəlmiş şeytan qəlbimə girərək, müttəhimdən rüşvət almağımı bildirdi. Dedim; “Bircə əlac var ki, onu edə bilsən tutulmaqdan yaxan qurtarar.” Dedi: “Nə əlacdır edərəm.”

Dedim: “Altı il əvəzinə səni altı ay sürücülük işindən dayandırmaqla bu işi həll edə bilərəm.” Sürücünün sevincindən gözləri yaşardı və dedi: “Qurban olum sənə ay Prokuror, nə lazımdır elə, ölməmişəm ki, pul lazımdır tapıb gətirərəm. Təki bu işə xitam verilsin və mən də həbs olunmayam.”

Bir az fikrə gedib ayağa durdum və otaqda pəncərənin qarşısına keçdim. Arxam müttəhimə tərəf olmaqla ona dedim: “Əgər altı min pul tapıb gətirsən, qərarı dəyişib və yazaram ki, o adam içkili vəziyyətdə olmuş və yolu piyadaların keçdiyi yerdən keçməmişdir. Buna görə də sənin işin yüngülləşər.” Sürücü bir az fikrə gedəndən sonra, dedi: “Məni indi evimə buraxın, sabahı günü sən dediyin məbləği tapıb gətirim.”

Mən qapının ağzında duran növbətçi milis nəfərini otağıma çağırdım. Müttəhimə müvəqqəti olaraq üç günlüyə azad olmaq haqqında buraxılış möhürləyib verdim və milis nəfərinə müttəhimin azad olmasını bildirdim. Üç gün keçmişdir ki, səhər-səhər qapı döyüldü və növbətçi milis nəfəri ilə həmin sürücü gəldi. Müttəhim stulda oturaraq və milis nəfərinin bayıra çıxmasını bildirdim.

Gülər üzlə müttəhimə dedim: “Hə necəsən, vəziyyət necədir, nə halda gəlmişsən?” Mən oturduğum yerdən durub və stolumun siyirməsini çəkərək, ona belə dedim: “Gətirdiyini öz əlinlə qoy bura.”

Sürücü gətirdiyi pulları siyirməyə qoyub və yerində oturdu. Mən kağız qələm götürüb aktın Protokoluna əlavələr etmək istəyəndə, otağımın qapısı döyülmədən açıldı. Otağa üç nəfər adam daxil oldular. Onlar Xalq Nəzarəti Komitəsinin sədri yoldaş Qadir Həsənəliyev və komitənin iki işçilərdən biri erməni dığası idi.

Xalq Nəzarət Komitəsinin sədri mənə kənara çəkilməyimi deyərək və həmin o iki nəfər siyirmədəki pulları çıxarıb stolun üstünə qoydular. Pullardan bir neçəsini cibindən çıxardığı nömrəli kağızla yoxlayandan sonra mənə hirslə dedi: “Deməli bizim yaxşı bildiyimiz Prokuror da rüşvət alır. Ayıb olsun sənə, axı kommunist bu işə əl atmamalıdır.” Onlar Akt hazırlayıb katibəmi də otağa dəvət edərək və rüşvət haqqında akt sənədini oxuyub imza etdilər.

Mən tərs-tərs pulu gətirən sürücüyə baxsam da, xeyri olmadı. Onlar otaqdan çıxandan sonra öyrəndim ki, müvəqqəti azadlığa buraxdığım sürücü, pul axtararkən arvadı erməni qonşusuna vəziyyəti danışmış. Qonşu arvadı dükançı Roza isə ərinə bildirmişdir. Əhaliyə Məişət Xidməti Kombinatında müavin işləyən Bəhlul Ağayev, dərhal lazım olan yerlərə xəbər vermişdir.

Ertəsi günü mənim məsələm üçün şəhər İlk Partiya Təşkilatının növbədən kənar iclasına çağırıldım. Bilirdim ki, iclasda artıq məni Kommunist sıralarından uzaqlaşdırmaqla, rüşvətxor müttəhim kimi üzərimə iş açılacaqdır.

Bu işə xitam vermək üçün Partiya iclasına getməyərək və özümə ezamiyyə yazıb qatarla Bakıya getməli oldum. (Yaşlı adamların deməsinə görə, Prokuror qatara minərkən onun rüşvətxor kimi tanıyanlar, qatarın axırıncı vaqonuna köhnə bir vedrə də bağlamışlar- F.B.).

Yamanlığa qarşı yaxşı olmaq

> *“Yalan deyə-deyə bir-birimizəYalanla, kələklə baş saxlamışıq.Varlıya can deyib, nəyə görəsəKasıbı vurmağa daş saxlamışıq.Ağıl olan yerdə güc nəyə lazımQılınc kəsməyəni söz doğramışdır.Sərvəti mənlikdən uca tutmuşuqYa Rəbb bu dünyanı kim qarğıyıbdır?”*

Bakıda Azərbaycan Xalq Nəzarəti Komitəsinin sədri yoldaş Azər İsmayılovun qəbulu üçün növbəyə yazıldım. (Sədrin ad və familiyası bilərəkdən düzgün yazılmamışdır.-F.B.). Qəbula düşmək üçün növbədə on beşinci adam oldum. Bunun üçün lazım olan sənədlər, pasport və iş yerindən arayış və nə məqsədə gəlmək haqqında ərizə olmalı idi. Bütün sənədləri hamı kimi mən də təqdim etdikdən sonra fikirli halda oturub və növbə gözlədim.

Növbədə ikinci adamdan sonra, içəridən çıxan katibə məni ad və familiyamı çağırdı. Mən ayağa durub və özümü təqdim etdim. Otağa girəndə stol arxasında əyləşmiş cavan bir oğlanı gördüm. Salam verib və onun icazəsi ilə stulda əyləşdim. Komitə sədri gülər üzlə yerindən ayağa durub və gəldi mənimlə üz-üzə əyləşdi. Bu gözlənilməz iş mənim üçün qəribə təəssürat yaratdı.”

Oğlan mənə gülə-gülə dedi: “Görürəm Naxçıvanlısan, mənə yaxşı-yaxşı bax gör tanıya bilirsən?” Mən nə qədər fikirləşdimsə də onu tanımadım və; “Yox sizi tanıya bilmədim”-dedim. O, ayağa durdu və mənə ziddi görkəmdə dedi: “Yadındadırmı, bir vaxtlar sillə ilə məni vurduğun. Atamı nahaqdan tutub güllələtdin, sandığı da Allah bilir neylədin. Yəqin ki, onun içindəkiləri vəzifə xatirinə özündən böyüklərə hədiyyə etmişsən.”

Mən bir anlığa həmin illəri xatırladım və sillə vurduğum uşağın birdən-birə bu vəzifədə olmasına sirr qaldım. Ancaq nə etmək olar olan olmuş və qalan da qalmışdır. İstədim ki oğlandan üzr istəyəm, o, isə əli ilə sakit olmağımı bildirdi. Oğlan keçib yerinə əyləşdi və üzünü mənə tutub danışmağa başladı. “Mən və rəhmətlik anamı Qazaxıstan çöllərinə sürgün etdilər. Orada bizdən savayı xeyli adamlar sürgündə idi. Müsəlman Qazax dostlarımız bizi ac qoymayıb və qayğı göstərdilər.

Məktəb yaşım çatdıqda oradakı məktəbdə İsmayılov familiyası ilə oxumağa başladım. Bizə təhsillə yanaşı pioner və komsomol tərbiyəsi də verirdilər. Anam rəhmətlik atam İsmayılın dərdindən tezliklə həyatdan köçdü. Məni yetim uşaqlar üçün İnternat məktəbə qoyub himayə etdilər. Orta məktəbi yaxşı qiymətlərlə bitirdim.

Kimlərinsə köməyi ilə Moskvada Lomonosov adına Universitetin Hüquq fakültəsinə tələbə qəbul olundum. Təhsili yarımçıq qoyaraq və üç il könüllü hərbi icbari əsgəri hissədə qulluq etdim. Starşina hərbi rütbəsində və kommunist partiyasının üzvü kimi, əsgər qulluğumu başa vurdum.

Moskvada Ali təhsilimi davam etdirdikdən sonra, Naxçıvandan gəlmiş molokan millətindən olan tələbə qızla evləndim. Universiteti əla qiymətlərlə bitirdikdən sonra məni Qazaxıstana işləməyə göndərmək istədilər. Lakin Allahın köməyinə ora başqa adam getdiyindən, mən isə Bakıda yenicə yaradılmış bu Komitəyə işə göndərildim.

Həyat yoldaşım Klara İsmayılova şəhərdəki Kirov adına Azərbaycan Dövlət Universitetində müəllim işləyir. (Müəllimənin ad və familiyası bilərəkdən düzgün yazılmamışdır.- F.B.). İki qızım vardır ki, onlar Bakıda doğulmuşlar. Həyat yoldaşım Allaha inandığından, məni də öz tərəfinə çəkmişdir."

Mən onun atası yaşında olduğumdan gözlərimdən yaş axdı və nə edəcəyimi bilmədim. O isə sözünə ara verib və mənim bura nə üçün gəlməyim və hansısa şikayətimi bilmək istədi. Birdən birə dedim ki, "Naxçıvanda Prokuror vəzifəsində işləyirəm. Cinayətin üstünü örtmək məqsədi ilə rüşvət üstə yaxalanmışam. İstəyirlər ki, məni partiya sıralarından çıxarmaqla və mənə cinayət işi açsınlar. Buna görə gəlmişdim sizin yanınıza ki, mənə kömək edəsiniz."

Oğlan yenə də ayağa durub və qeyzlə dilləndi; "Axı sən niyə bu işi tutmuşsan. Bilmirsən ki, rüşvət üstə adamı rüsvay edirlər. De görüm neçə yaşın vardır." Dedim ki; "Bu ay altmış dörd yaşa keçməliyəm."

Dedi ki; "Bunun bir əlacı vardır. Mən Naxçıvanla telefon əlaqəsi yaradıb və sənə toxunmayacaqlarını xahiş edərəm. Ancaq sən elə özün tutduğun vəzifə və kommunist partiyası sıralarından azad olmağına ərizə yazıb canını qurtar. Mən isə sənin yaşına görə sosial təminatlı təqaüdə çıxmağına kömək edərəm."

Mən bu ağıllı təklifə görə oğlana təşəkkür edib və sağollaşmaq istədim. Oğlan isə dedi: "İstəyirsən ev ünvanımı sənə verim və qalmağa yerin olmasa bu gün qonağım ol." Dedim ki yox axşam qatarı ilə qayıdıb getsəm yaxşıdır." O isə son söz olaraq mənə dedi: "Sən mənim düşmənim olsan belə qapıma imdada gəlmişsən. Mən olub keçənləri bağışlayıram. Məndən yaşca böyük olsan da, bil ki, yamanlığa yaxşılıqla cavab vermək nər kişinin işidir."

Atalar demişkən; "Ot bitər kök üstə." Mənim əslim-köküm bəy nəslindən olmuş, sənin isə ..." Oğlan sözünün dalını deməsə də mənə aydın oldu ki, əsli kökü gəda olandan yaxşılıq gözləmək olmaz." Birdən iş yoldaşım Abdulla Bağırovun bir vaxtlar mənə belə bir şerin zümzüməsi yadıma düşdü;

> *“Ot bitər kök üstə, deyib atalar,Əslini danandan hörmət gözləmə.Üzdə gülüb dalda quyu qazandanYaxşılıq gözləmə, ülfət gözləmə...”*

Oğlan dedi: “Yamanlığa yaxşılıq etməliyəm, qorxma sənə kömək edəcəyəm. Allahı unutma, hər şey Onun əlindədir. Bizlər sadəcə vasitə və vəsiləyik. Gör bir aqillər nə demişlər; “Həyatında harada olursan ol, hər işdə Allahdan qorx!” Bu sözləri eşitcək keçmiş iş yoldaşım yoldaş Abdullanın mənə bir vaxtlar dediyi sözlərlə üst-üstə düşdüyünü gördüm.

“Bu dünya nə sənə və nə də heç kimə qalmayacaqdır. Bacar yaxşı insan ol. Bunun üçün əməllərin yaxşı olsun. Çünki, bu dünyadan tarix boyu o qədər vəzifə sahibləri qara torpağa gediblər. Biz də gedəcəyik. Hər işdə səbirli və mehriban ol. İstəsən ki, sənə hörmət və ehtiram etsinlər, səndə bu gün kimlərəsə hörmət və ehtiram et. Allah amanında, əgər sözün yoxdursa sağ ol və salamat qal.”

“Xalq Nəzarət Komitəsinin sədri bunları deyib və məni qucaqlayaraq sifətimdən öpdü. Mən dayana bilməyib və göz yaşını silə-silə sağollaşaraq otaqdan çıxdım. O vaxtdan neçə il keçsə belə mən bir vaxtlar sillə ilə vurduğum oğlanlın mənə qarşı mərhəmətini unuda bilmirəm. Bu əhvalat 1964-cü ilin sentyabr ayında olmuşdur.”

Həmin ilin sentyabr ayında SSRİ Ali Sovetin Sədri və Sov. İKP MK-nin Baş katibi yoldaş Nikita Xruşşov, tez-tez Amerikaya səfərdə olurdu. ABŞ-ın Prezidenti onu ələ alıb və təhlükəsizliyinə təminat verir ki, Sovet dövlətini dağıtsın. Axırıncı dəfə Amerikadan qayıdarkən Moskva təyyarə limanında hökumət başçısı, Təhlükəsizlik Nazirliyi işçiləri tərəfindən tutulur. Bundan sonra SSRİ hökumətinə birinci katib yoldaş Leonid Brejnyev gəlir.

Halallıq böyük sərvətdir

1964-cü ilin payızında Naxçıvan MSSR-nin 40 illiyi münasibətilə şəhərdəki Lenin adına mədəniyyət və istirahət Parkında müxtəlif mədəni-kütləvi tədbirlərlə yanaşı, hər həftənin bazar günlərində isə əhaliyə xidmət məqsədilə ticarət yarmarkası olardı...”

Hə usta məni gərək bağışlayasan. Səni bu gün çox yorub və vaxtını aldım. Ancaq özüm də bu söhbətlərdən bir mənəvi toxtaqlıq tapdım. Məni halal elə, al bu on manat pulu da qoy cibinə və halallıqla xərclə. Səni mən az-çox tanıyıram. Sən də halal adamsan. Mənim bu evimin qapısı sənin üzünə hər vaxt açıqdır. Şair gör halallıq haqqında nə deyib;

> *“Başa ucalıqdır üzə ağlıqdır,Ocağa bərəkət vardı halallıq.Əməli düzlərə, qəlbi düzlərə,Əbədi sirdaşdır, yardır halallıq.Nəfsi hakim olur nədən bəndəyə,Hər zaman özündən razı bəndəyə,Allahın yoluynan gedən bəndəyə,Əbədi sirdaşdır, yardı halallıq.”*

“Bir zaman məndən yaşca böyük olan keçmiş dindar iş yoldaşım və qardaşım olmuş Abdulla Bağırovun mənə dediyi hikmətli sözü sənə də deyirəm. “Həyatında nə vəzifədə olursan ol, hər işdə Allahdan qorx!” Əgər həmin sözə hər kim qəlbən əməl edərsə inan ki, dünya işləri düzəlməklə, sanki yatdığımız dünya həyatında ölüb-diriləndən sonra əbədi həyata, Quranda deyilən cənnətlərə gedər. Di sağ ol və Allah köməyin olsun.”

Hə dostum Feyruz müəllim inanırsan ki, əvvəlcə Prokurora qarşı ürəyimdə kin olsa da, onun axırıncı sözündən sonra sanki yatmışdım yuxudan ayıldım. Axı mənim də həyatımda xoş günlərim olmayıb. Mən də bəzən lənətə gəlmiş şeytana uyaraq və ağa qara demişəm.

Prokurorun mənə verdiyi pulun yarısın aparıb şəhərdəki məscidin qabağında duran ehtiyacı olanlara payladım. Allah yəqin ki, mənim də sənin də dünyadakı günahlarımızı bağışlayar. Allah dünyadan köçmüş Prokurorun ruhuna rəhmət eləsin.

Di dur gedək məscidə əzanın vaxtına az qalır. Cümə namazında mömin dostlarımızdan ayrı düşməyək. Az-çox bilirəm sənin də dünya həyatın o qədər yaxşı keçməyib. Nə etmək olar, axı tale yazımızı yazana qarşı çıxmayacağıq. Alan da Odur, verən də Odur.

> *“Varın dövlətin az, qəlbin xəzinə,Həyatı dərk edən kamil insansan.Fəzilət xalatın geyib əyninə,Dünyanı tanıyan aqil insansan.”*

Hər kəsin ruzisini Allah qəbir evinəcən verir. Bilirəm ikimizdə ağır xəstəliklə cərrah əməliyyatından keçmişik. Nə etmək olar, Allah bilən yaxşıdır. Şükür etməliyik ki, ayaq üstəyik, görüb və danışırıq. Həyatda yamanlığa qarşı yaxşı olmaq, hünərdir.

FEYRUZ BAĞIROV

AXİRƏT FƏDAİSİ

◆ ◆ ◆

Azərbaycan orta əsr ədəbiyyatının görkəmli nümayəndəsi yazıçı, şair və filosof Abbasqulu ağa Bakıxanov Qüdsinin “Nəsihətlər” əsərinin farscadan tərcüməsi.

(Müqəddimə, şərh və yenidən işlənmiş ədəbi-bədii tərcümə)

Bakıxanov Abbasqulu ağa Qüdsi

> *"İnsana verilmiş bir dövlət varsa, o da Allahın bəxş etdiyi elmlə ədalətdir."*
>
> (Bakıxanov A.)

Abbasqulu ağa 1794-cü ilin 3 iyul tarixində Xilə (Əmircan) kəndində Bakı xanı II Mirzə Məhəmmədin ailəsində doğulmuş və ruhani təhsil alaraq ilahiyyat fənlərini mənimsəmişdir. O, 1820-ci ildə Əlahiddə Qafqaz Korpusunda hərbi qulluğa götürülərək çar Rus ordusu sıralarında xidmət etmiş. 1822-ci ildə qulluq etdiyi Korpusda Şərq dilləri üzrə mütərcimliyə işə götürülən Bakıxanova, nümunəvi hərbiçi kimi (1842-ci ildə) polkovnik rütbəsi verilmişdir.

Abbasqulu ağa bədii yaradıcılığa 1834-cü ildən hərbi işdən istefaya çıxandan sonra başlamışdı. O, 1841-ci ildə yazdığı "Gülüstani-İrəm" əsərini Rus dilinə də tərcümə etmiş 1984-cü ildə Bakıxanovun seçilmiş əsərləri (40.000 nüsxədə) müasir Azərbaycan dilində nəşr olunmuşdur. 1990-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən müəllifin "Kitabi-Əsgəriyyə" əsərini də gənc oxuculara hədiyyə etmişlər.

Müəllifin əsərlərində şərq fəlsəfəsi və əxlaq prinsipləri əsas yer tutur. Onun qələmə aldığı əsərlər "Riyaz-ül-qüds", "Təhzib-ül-əxlaq", "Kitabi-nəsayeh", "Eyn-ül-mizan", "Miskat-ül-ənvar" və başqalarıdır. Müqəddəs "Quran" kitabına əsaslanan Abbasqulu ağa yaradıcılığında İslam dininin ehkamlarını təbliğ etmişdir. O, əsərlərində fəlsəfəni fərqləndirərək yalnız Ulu Yaradanın fövqəlelmi kimi göstərmişdir.

Bakıxanova görə Allah insanda ruh, ağıl və idrakı yaratmışdır. O, dövrünün İslam təlimlərinə əsaslanaraq göstərmişdir ki, bu dünyada varlığı "mümkün" olan yalnız varlığı "zəruri" olan Allahdır. Mümkün varlıq-zəruri varlıqdan yaradılmış, yəni aləmləri tək olan Allah yaratmışdır.

Yaranma və məhv olma ancaq bu dünyaya aiddir, çünki inkişaf mümkün varlığın ayrılmaz hissəsidir. Abbasqulu ağa dünya həyatından da yazaraq bildirir ki, cansız və canlılar dörd ünsürdən ibarətdir. Onların əsas varlığı hava, atəş (od), torpaq və sudan ibarətdir. Buna görə də Dünya həyatında Allah tərəfindən "nizam", "müvazinət" və "səbəb" yaradılmışdır.

Bakıxanov etikaya "mənəviyyat fəlsəfəsi" kimi yanaşdığından, əsərlərində əsas diqqəti insani keyfiyyətlərə vermişdir. Abbasqulu ağaya görə insandakı əxlaqi keyfiyyət tərzi-hərəkətlə uyğun olmalıdır. Müəllif əsərlərində insandakı doğruçuluq, vicdan, namus, ədalət, təvazökarlıq, dostluq, qənaətçilik və alicənablıq prinsipləri özünü göstərməkdədir.

Abbasqulu ağa Bakıxanov bədii əsərlər ilə elmi-fəlsəfi kitabların da müəllifidir. O, öz dövründən əvvəlki yaşamış münəccimlərin nəzəri bilikləri əsasında "Əsrar-ül-Mələküt" ("İlahinin sirləri") adlı əsərini də yazmışdır.

1951-ci ildə Azərbaycan oxucularına müasir ədəbi dildə çatdırılan "Gülüstani-İrəm" ("Behişt çiçəkləri") adlı əsərində müəllif belə deyir:- "Bu dünyada insandakı mal və dövlət puç olacaq, ixtiyar (vəzifə) və iqtidar (sağlıq) əldən gedəcəkdir..."

Müəllif sözünə ara verərək qətiyyətlə belə deyir:- "İnsanda şəxsi ləyaqət olmasa mənsəb və sülalə şərəfi qürbətdə naməlum, vətəndə isə məzəmmətlə qarşılanacaq. Bütün bunlara fikir vermək mənasızdır. Çünki, etibar ediləcək bir dövlət varsa o da Allah və onun bəxş etdiyi elmlə ədalətidir". (Bax, A.Bakıxanov, "Gülüstani-İrəm", Bakı-1951).

Axirət Fədaisi Abbasqulu ağa ömrünün son günlərini Ərəbistandakı müsəlmanların müqəddəs ziyarətgahlarında keçirmiş. O, şərq ölkələrində olarkən coğrafiya elmi üçün əhəmiyyətli olan "Kəşf-ül-qəraib" ("Coğrafiya") əsərini də yazmışdır. Abbasqulu ağa yaradıcılığında bədii-lirik və satirik şerlər də yazmış, Rus təmsilçisi İ.A.Krılovun "Uzunqulaq və bülbül" şerini isə dilimizə tərcümə etmişdir.

Böyük ədib Tiflisdə jurnalistika sahəsində də işləyərək 1828-1832-ci illərdə Fars dilində nəşr olunan "Tiflis xəbərləri" qəzetinin redaktoru olmuşdur. Bakıxanov ərəb ölkələrində olarkən özünə "Qüdsi" (pak) təxəllüsünü də götürmüşdür. O, xalq, ədalət və həqiqət yolunda canını qurban verən mərd və mübariz qəhrəmanları tərənnüm edərək belə demişdir:

> *"Gül qönçədə qala bilməz, yırtıb çıxar paltarını,Budur onun təbiətdən öz hünəri, vüqarı.Beləcə də haqq yolunda çarpışan hər mərd insan,Ya xalqına xeyir verər, ya da yolda verər can".*

Abbasqulu ağa Bakıxanov fədakar mömin kimi 53 yaşında, Həcc ziyarətindən qayıdarkən Məkkə şəhəri yaxınlığında dünyadan köçmüş və "Baqi məzarlığı" nda dəfn olunmuşdur.

Allah ruhuna rəhmət eləsin! Amin!

Müqəddimə əvəzi

> *“Uşaqlıqda öyrənilən elmDaşa qazılmış yazı kimidir”.(Bakıxanov A.)*

Bismillahir-rəhmanir-rəhim! (Mehriban və bağışlayan Allahın adı ilə!)

Nemətləri və xeyirli işləri bəxş edən Allaha şükürlər olsun!

Əxlaq gözəlliklərini yerinə yetirməyə layiq görünən peyğəmbərlərə mənəvi əxlaqımızı qoruyanlara Allahın köməyi olsun!

Acizlik və günahkarlığına etiraf edən müəllif, Abbasqulu ağa Mirzəməhəmməd xan oğlu Bakıxanov (Allah atamı behiştlik etsin!). Mən nə qədər axtardımsa uşaqların təlimi üçün elə bir kitab tapa bilmədim ki, asan dil ilə oxunsun və əxlaqa fayda versin.

Məktəblərdəki dərsliklər qarışıq-dolaşıq sözlərlə yazıldığından müəllimlər onları anlaya bilmir. Bəzi kitabların oxunuşu o qədər məntiqsizdir ki, onları da yadda saxlamaq olmur. Hər şeydən əvvəl kiçik yaşlı uşaqlara əxlaq gözəlliklərini öyrətmək lazımdır. Pis xasiyyətlər uşaq təbiətinə daxil olarsa elmlə ədəb öyrətmək çətinləşər.

Hicri tarixi il 1252-ci (miladi 1831) ildə “Nəsihətlər” adlı yığcam kitab yazıram. Ümidvaram ki, qüdrətli Allahın köməyi ilə yazdığım sözlər oxuculara fayda verməklə onları sevindirəcəkdir.

Cavanlara üz tutub deyirəm ki,- “Ey əziz oxucular! Allah insanı dünyada hər məxluqdan üstün yaratmışdır. Heyvanlar böyük bədən və gücləri ilə insanın əlində ram olur. Bu isə insanın bacarıq qabiliyyətindəndir.

Hər kəs bilikli və iş bacaran olarsa dünyada hörmət qazanar. Buna görə də iş bacarmaq üçün təcrübəli adamlardan öyrənmək lazımdır. Mənim xeyirli nəsihətlərim axirət fədailərinə mənfəət gətirər. Nəsihətləri oxuyanlar Abbasqulu ağanın ruhuna dua etsinlər.

Nəsihətlər

Hər kəs vəzifədə, elmdə və yaşda səndən böyükdürsə, ona hörmətlə ehtiram göstər ki, kiçiklər də sənə hörmət etsinlər.

Alimlərin əməllərini yüksək bil. Aranızda peyğəmbər və imamlar olmadığından şərəf alimlərinə ehtiram edin.

Şahlara və əmirlərə (məmurlara) itaət etmək lazımdır ki, onlar olmasalar insanlar bir-birlərinə qəsd edərlər.

Hər hansı ölkədə olsan yerli qanun-qaydalara əməl et ki, əzab-əziyyətə düçar olmayasan.

Bu dünya və axirət üçün lazımsız işləri görmə ki, tezliklə ziyana düşərsən.

Birini bədbəxt və zavallı vəziyyətdə görəndə gülmə ki, Allah da səni onlara tay etməsin.

Hər kəsi görəndə ondan əvvəl salam ver.

Hər kəs səndən söz soruşsa ədəblə cavab ver ki, başqaları da səni sevsin.

Gəncliyində elə adamlarla dostluq et ki, yaşlaşanda xəcalət olmayasan.

Ətrafındakı naxələf və hərzə danışan adamlardan uzaqlaş ki, səni də onlara tay bilməsinlər.

Ehtiyaclıya bacardığın qədər kömək et ki, sənin də ehtiyacın olanda kömək etsinlər.

Heç kəsin pisliyini başqalarına söyləmə. Çünki o şəxs sənə düşmən olarsa sözlərini yayar, dost olarsa haqqında pis düşünər.

Yalan danışanlardan çəkin. Çünki onlar doğru sözlərinə inanmazlar.

Başqalarının eybini sənə danışandan uzaq ol. Çünki o, sənin də eybini başqalarına söyləyər.

Bir adamla elə dostluq etmə ki, bir gün düşmən olanda səni məhv etsin.

Heç kəslə qatı düşmənçilik etmə ki, zərurətdən dost olanda xəcalət çəkməyəsən.

İnsan qəzəbli olanda ağlı azalır. Bu halda Şeytanı lənətləməklə hər işi sonraya saxlamalıdır.

Sənə aid olmayan işləri görməyə çalışma. Tezliklə xeyir görməyib hər işdən geri qalarsan.

Tənbəllikdən uzaq ol ki, bütün eyiblərdən pisdir. Çünki məxluqat kainatla hərəkətdədir.

Allah dünyanı nizamda saxlamaq üçün hər məxluqatı yaratmışdır ki, biri digərsiz yaşaya bilməsin.

Kamil insan tənbəllik edib işə yaramasa, daş və palçıq ondan yaxşıdır. Çünki onların hər ikisindən bina tikirlər.

Elm və kamalı əldə etməyi hər şeydən daha əziz bil. Çünki kamil insan hər şeyi onların vasitəsi ilə əldə edir.

Başqasına pislik etməyə çalışan bir adama yaxşılıq etmək, yaxşılara pislik etmək kimidir.

Hər sözü eşidən kimi ona inanma. Çox ehtimal ki, o sözü deməyin bir qərəzi vardır və ya sözün düzgünlüyündən xəbərsizdir. Eşitdiyin sözün düzgünlüyünü başqa yerdən öyrənməyə çalış.

Unutma ki, bir işin (sözün) necəliyinə (doğruluğuna) inansan, sonradan xəcalətli qalmazsan.

Söyüşlə zarafatı özünə adət eləmə ki, xalqın gözündə alçalarsan.

Görülmüş işə istehza etmə ki, xalqın nəzərindən düşərsən.

Mübahisədə qalib gəlsən məğlubun nadanlığını ifşa etmə. Çünki həmin şəxs intiqam üçün fürsət axtarar.

Söhbət zamanı başqasının sözlərini yarımçıq kəsib danışma. Çünki danışıqda sözü kəsmək nadanlıqdır.

Mümkündür ki, bir şəxs səhv üzündən öz sirrini açıb desin. Bil ki, çox danışmaqla sirrini əldən verməyəsən.

Rahatlıq sağlamlıqdan yaranar, mal-dövlət yığmaqla rahatlıq pozular.

Kasıb adam halal zəhməti ilə qazandığını rahatlıqla yeyər. Dövlətli haram yeməklə minnət və qorxu çəkər.

Sənə müsibət üz verəndə Allaha təvəkkül deməklə səbr et. Çünki əldən gedən geri qayıtmayacaq.

Əgər dünən üçün heyfsilənsən, sabahkı işlərindən qafil olarsan.

Öz dərdini başqalarına söyləmə ki, düşmənlərin qüvvətlənər, dostlarının da nəzərindən düşərsən.

Qəzəbli şəxs başqalarının günahları üzündən özünə əzab verər.

Paxıllıq qabiliyyətsizlik əlamətidir.

Hünər və qabiliyyətinə inanan başqalarından güclü olar.

Hünərsiz adam tərəqqiyə çatmaz və hünərlilərin də tərəqqisini pisləyər.

Paxıllıqdan daha alovlu yandırıcı atəş yoxdur.

Paxıllar ömürlərində heç vaxt rahatlıq tapmazlar.

Başqasının sağlığı paxıla dərd gətirər.

Həris adam həmişə kədərli olar, çünki o nə qədər yığsa (qazansa) elə bilər ki azdır.

Düşmənin şirin dilinə inanma, bil ki, o səni aldadır və ya zəifdirsə fürsət gözləyir.

Başqaları səni tərifləməklə istedadlı olmağını zənn etmə. Çünki tərifləyənin məqsədində tərifli sözlər ilə münasibətini gizlədə bilər.

Harada olsan həddini bil ki, özünü aşağı və yuxarı tutmayasan.

Xalq sənin kimliyini yalnız dilindən çıxan sözlərinə görə qiymətləndirər.

Xalq içərisində hərzə-hərzə danışmaqdan özünü çəkindir.

Hər bir işi ağlının təsdiqi ilə gör.

Həyatında bəxtin gətirməsə də elmli adam kimi olmağına sevin.

Bilmədiyin bir işi inkar etmə, bildiyin işin də düzgünlüyünə bel bağlama.

Həyatda dünya bilikləri (elmləri) az olduğu kimi idrakımız da gücsüzdür.

Xoşxasiyyət adamın ətrafında dostları da çox olar, necə ki, maddənin (günəşin) ətrafında dövr edənlər mövcuddur.

Dostları çox olanlar həyatda xoşbəxtdir.

Əsl dost dərdinə şərik olmaqla nöqsanlarını göstərib, ehtiyacına dayaq durandır.

Dünya malını sevən və mövqe axtarmağa həris olan adam dostluğa yaramaz.

Dünya malına həris olanlar yalnız özlərini düşünərək başqalarına ziyan verər.

Hər işdə qərəzli olmayan özündən ağıllı adamlarla məsləhətləş.

Tək adamın düşünməsi hər işin öhdəsindən gəlməyə qüdrəti çatmaz.

Sözün qədrini onu deyənin halı ilə müqayisə etmə.

Bəzən elə olur ki, cahilin sözü aqilin sözlərindən mənalı olur.

Həyatda imkanlı adamlar bəzən elə səhvlərə yol verirlər ki, imkansız (adi) adamlar onu etməzlər.

Yaxşılıq etməklə dinsizi özünə dost, yamanlıq etməklə isə dindar dostunu itirə bilərsən.

Çox yeməkdən çəkin ki, bədənin sağlamlığı ilə ağla ziyanı vardır.

Ürəyin istədiyini eləməkdənsə, ağlın işlətdiyinə əməl et ki, yaxşı və pisi ayırd edə biləsən.

Ağıldan və elmdən daha yaxşı bir dövlət yoxdur. Çünki onları sənin əlindən ala bilməzlər.

Bir adama nəsihət vermək istəsən xəlvətdə de ki, xalq bilməsin.

Vədə verdiyinə əməl elə ki, başqa sözlərinə də inansınlar.

İmkan daxilində özgənin bəxşişini qəbul etmə. Çünki sən alçalarsan o isə böyük görünər.

Bu gün görə bilməyəcəyin işi sabaha saxlama, çünki sabah işin müşkül ola bilər.

Doğruluğu özünə dost, yalanı düşmən bil.

Yalançının aqibəti xalq arasında rüsvayçılıqdır.

Başqasının eybini görəndə gizlət ki, Allah da sənin eyiblərini örtsün.

Yaxşılıq ehtimalı olanda, adamların işlərinə pis demə. Çünki yaxşı işlərindən xəbərsizsən.

İnsanın şərəfi özünün qabiliyyətindədir.

Naxələf övlad nəslinin adını batırar.

Özünə rəva görmədiyin bir şeyi başqalarına rəva bilmə ki, rəva gördüyündən cəza alarsan.

Hər bir dinsizin pis əməllərinə görə şübhəsiz qiyamətdə cəzası da olacaqdır.

Dünyada kimə yaxşılıq və pislik etsən, bil ki özünə etmişsən.

Hər bir sözü deyəndə və ya iş görəndə arxayın olma ki, o sözün ya əməlin üstü açılmaya. Pis sözlə bəd əməlin sahibi gec-tez rüsvay olar.

Hər kəsə (möminə) zərər verilməsinə razılıq vermə ki, axırda hörmət qazanasan.

Əmanətə xəyanət etmə ki, Allahın qəzəbi ilə xalq arasında rüsvay olasan.

Qohum-əqrəba ilə mehriban ol ki, onlar da sənə mehribançılıq etsinlər.

Qonşularla yaxşı rəftar et ki, sənlə mehriban olsunlar. Bil ki, onlar çoxdur sən isə tək.

Bəd əməllərdən uzaq ol ki, bütün yaxşı işlərin əldən getməsin.

Bədməcaz adam öz çirkin xasiyyətindən əl çəkməsə, xalqdan uzaq düşər.

Bir adama yaxşılıq etsən onun boynuna minnət qoyma ki, yaxşılığın əldən gedər.

Ağıllı adam odur ki, öz eybini başqalarının eyiblərindən artıq görə və öz hünərini özgələrinkindən az bilə.

Sənə hər kim pislik etsə səbirli ol ki, onun pisliyindən uzaqlaşasan.

Sənə pislik edənin şərindən uzaq ol və pislik edənə qoşulma ki, sən də onun tayı olarsan.

Nə qədər imkanın varsa həyatda dostluq axtar, çünki düşmənçilik peşmançılığa gətirib çıxarar.

Hər bir düşməni zəif hesab etmə, çünki düşmənin qüvvətlilərlə əlaqəsi olar.

Heç kəsin ədavətini ürəyində saxlama ki, qəlb rahatlığı ilə dinin pozular.

Bir kəsin səndən pis danışıqlarını eşitdikdə tezliklə həmin adama sözlərinin düz və yanlışlığını çatdır.

Allahın sənə verdiyi dövlət, dünya və axirət mənafeyinə sərf etmək üçündür.

Paxıl adam dünyadakı varından məhrum olaraq dünyadan köçər və var-dövlət özgəyə çatar.

Var-dövləti sərf edərkən israfçılığa yol vermə ki, sonra ehtiyacın olanda əlin boş qalmasın.

Diqqət et ki, bir iş görəndə mənfəət əvəzində bədnamçılıq qazanmayasan.

Yaxşı əməldən iki dəfə zövq alarsan, onu edəndə və savab qazananda.

Dünyada hər şey məhvə məhkumdur.

Dünya işləri məhvə məhkum olduğundan, gərəkdir ki heç nəyə aludə olmayasan ki, bir gün əzabla rastlaşacaqsan.

Ömrünü elə bir işdə çürütmə ki, axırda peşmançılıq çəkəsən.

Bir işi görəndə əvvəlcədən yaxşı düşün ki, sonra peşman olmayasan.

Hər hansı bir işi görmək üçün çox vaxt lazındır ki, yerinə yetirilməsinə fürsət olsun.

Kasıblıqdan və çarəsizlikdən şikayətlənmə ki, səndən betərləri sənin kimi olmağı istərlər.

Allah dünyanı öz məsləhəti ilə nizamlı yaratmışdır. İnsanlar bir-birləri ilə bərabər ola bilməzlər. Necə ki, gözün gördüyü işi qulaq edə bilməz və ağızın edə biləcəyini əl edə bilməz. Allah insandakı hər bir üzvü müəyyən iş üçün yaratmışdır.

İnsanlar surət və səsdə müxtəlif olduqları halda, elm və əxlaqda fərqlidirlər.

Yaradan Allaha şükür edərək irad tutmamalıyıq ki, insanlar niyə fərqlidir.

İstədiyin bir iş baş tutmasa fikirləş ki, bəlkə səbəbkar özün olmuşsan.

İşinizi ağılla yerinə yetmədikdə "Allah qoymadı" deyərək şikayətlənmə.

Hər işdə etiqadlı olmaq gərəkdir.

İsrafçılığa aludə olsaq işimizdə xeyir görmərik.

İnsanda mehribançılıq olduğu kimi, lazım gəldikdə qəzəblənmək (amirlik) də lazımdır.

Kamil insan hər işdə ortaq məxrəcdə qalmağı üstün bilər.

Günahkarı cəzasız qoyma ki, başqalarına da ibrət olsun.

Nahaqdan cəza verilənə kömək et ki, bəlaya düşəndə sənə də kömək etsinlər.

Bədbəxt o şəxsdir ki, heç kəsə yaxşılıq etmir.

Çalışmadan Allahdan qismət gözləmək əbəsdir.

Yaxşı iş görməklə günahları bağışlamaq mümkündür.

Görüləsi işin varsa, özün onun yerinə yetirilməsinə nəzarətçi ol ki, heç kəs sənin fikrini özününkündən üstün tutmasın.

Zövqlər müxtəlif olduğundan başqası sənin işini, istədiyin kimi görə bilməz.

Bir işi köməksiz görmək mümkün deyil.

Bir işi tapşıranda, özün də icrasına diqqət yetir.

Bacarığına görə iş götür ki, nəfsinə qalib gələsən.

Adam çox dalınca qaçarsa, azdan da əli üzülər.

Hər kəsə halına görə yaxşılıq elə.

Cüzi yaxşılıqla böyük yaxşılıq kimi ehtiyaclını sevindirə bilərsən.

Bir işi görməyə ixtiyarımız olsa belə, Allahın köməyi olmadan lazımınca görə bilmərik.

Hər işə Allahın adı ilə (Bismillah deməklə) başla.

Hər işin müvəffəq olması üçün, yalnız Xudavəndi-aləmdən istə.

Qeyd: A.Bakıxanovun “Nəsihətlər”inin tərcüməsini qalın hərflərlə 1966-cı ilin mart-aprel aylarında müəllifin atası Abdulla Hacı Məhəmməd oğlu (1898-1973) tərəfindən tərcümə edilmişdir. Yazıçının qısa həyat-yaradıcılığı ilə ədəbi tərcümə isə nazik hərflərlə yazılaraq, 2008-ci ilin sentyabr ayında Azərbaycan MEA Nəsimi adına dilçilik İnstitutu tərəfindən 1985-ci ildə nəşr olunmuş ”Ərəb və Fars sözləri Lüğəti”ndən istifadə edilərək müasir oxuculara çatdırılır.

Ədəbiyyat

1) Z.M.Bünyadov, V.M.Məmmədəliyev, “Qurani Kərimin Azərbaycan dilinə mənaca tərcüməsi” (12-ci nəşr) Bakı-2012.

2) “ASE” (10 cilddə) Bakı-1976-1989.

3) “Azərbaycan tarixi” (7 cilddə) Bakı-1998.

4) “Naxçıvan tarixi” (3 cilddə) Naxçıvan-2013-2015.

5) “Naxçıvan Ensiklopediyası” (2 cilddə)Bakı-2002-2005.

6) F. Cəfərov, “Naxçıvan polisinin inkişaf yolu” Bakı-2008.

7) F. Əliyev, “Naxçıvan xanlığı” Bakı-1996.

8) İ. Hacıyev, “Gümrü, Moskva, Qars müqaviləsi və Naxçıvanın taleyi” Bakı-1999.

9) İ. Kazımov, “Naxçıvan; əhalisi, sosial-iqtisadi və siyasi tarixinə dair” Bakı-2007.

10) İ. Musayev, “Naxçıvan və Zəngəzur bölgələrindəki siyasi vəziyyət və xarici dövlətlərin siyasəti (1917-1921)” Bakı-1996.

11) M. Quliyev, “Naxçıvan xanlığının Qafqazda hərbi-siyasi mövqeyi və əlaqələri” Naxçıvan-2013.

12) V. Ünüvar, “Naxçıvanda 8 ay bolşeviklərlə üz-üzə (1920-1921)” Naxçıvan-2014.

13) V. Baxşəliyev, A.Seyidov, “Naxçıvanın qədim tarixi” Bakı-1995.

14) F. Bağırov, “Tarixin yaddaşı” Bakı-2009.

15) R. N.İvanov, “Basqın” (Rusca), Moskva-2009.

16) “Ateistin cib lüğəti” Bakı-1987.

Feyruz Abdulla oğlu Bağırov

1946-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, Naxçıvan Kənd Təsərrüfatı Texnikumu, Babək rayon Təhsil Şöbəsi, Naxçıvan şəhər 3 № -li məktəb, Naxçıvan Estetik Tərbiyə Mərkəzi, Naxçıvan Uşaq İncəsənət Məktəbində pedaqoji sahədə çalışmışdır.

“Fars və Ərəb dilləri kursu”nu bitirən F.Bağırov, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti Yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal təbliğatçısıdır. 2011-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Tarixi Abidələri Mühafizə Cəmiyyəti Rəyasət heyəti Naxçıvan MR şöbəsinin fəxri Diplomu ilə təltif olunmuşdur. 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək veteranı fəxri adını almışdır.

Feyruz Bağırov, “Ziyarətnamə” (1996), “Nuh yurdu-Naxçıvan” (1999), “Əzablı günlər” (2006), “Naxçıvanın təbii sərvətləri” (2007), “Nuh yurduna ziyarət” (2008), “Axirət fədaisi” (2009), “Tarixin yaddaşı” (2010), “Dünya həyatı” (2013), “Müsəlmanın maraq dünyası” (2014), “Xatırlanan ömür” (2014), “İslam mədəniyyəti” (2015) və “Dərman bitkiləri” (2016) adlı kitabların müəllifidir.



FEYRUZ BAĞIROV

1946-cı ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, Naxçıvan Kənd Təsərrüfatı Texnikumu, Babək rayon Təhsil Şöbəsi, Naxçıvan şəhər 3 №-li məktəb, Naxçıvan Estetik Tərbiyə Mərkəzi, Naxçıvan Uşaq İncəsənət Məktəbində pedaqoji sahədə çalışmışdır.

“Fars və Ərəb dilləri kursu”nu bitirən F.Bağırov, ictimai əsaslarla Naxçıvan MR Nazirlər Kabineti Yanında Dini İşlər Müvəkkilliyi və Muxtar Respublika Tarixi və Arxeoloji Abidələri Mühafizə Cəmiyyətinin fəal təbliğatçısıdır. 2011-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi Tarixi Abidələri Mühafizə Cəmiyyəti Rəyasət heyəti Naxçıvan MR şöbəsinin fəxri Diplomu ilə təltif olunmuşdur. 2012-ci ildə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Əmək veteranı fəxri adını almışdır.

Feyruz Bağırov, “Ziyarətnamə” (1996), “Nuh yurdu-Naxçıvan” (1999), “Əzablı günlər” (2006), “Naxçıvanın təbii sərvətləri” (2007), “Nuh yurduna ziyarət” (2008), “Axirət fədaisi” (2009), “Tarixin yaddaşı” (2010), “Dünya həyatı” (2013), “Müsəlmanın maraq dünyası” (2014), “Xatırlanan ömür” (2014), “İslam mədəniyyəti” (2015) və “Dərman bitkiləri” (2016) adlı kitabların müəllifidir.

Feyruz Bağırov, “Ziyarətnamə” (1996), “Nuh yurdu-Naxçıvan” (1999), “Əzablı günlər” (2006), “Naxçıvanın təbii sərvətləri” (2007), “Nuh yurduna ziyarət” (2008), “Axirət fədaisi” (2009), “Tarixin yaddaşı” (2010), “Dünya həyatı” (2013), “Müsəlmanın maraq dünyası” (2014), “Xatırlanan ömür” (2014), “İslam mədəniyyəti” (2015) və “Dərman bitkiləri” (2016) adlı kitabların müəllifidir.

Müəllifin veb saytı: www.nuhyurdu.com

E-məktub ünvanı: info@nuhyurdu.com